

# QANUNÇULUQ

## HÜQUQ JURNALI

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı




№ 01 - yanvar 2024



**20 Yanvar 1990-cı il Azərbaycanın tarixində ən faciəli gündür. Ancaq eyni zamanda o gecə, o gün Azərbaycan xalqı öz qəhrəmanlığını, rəşadətini və şəhidlik zirvəsinə qalxa bilməsini bütün dünyaya nümayiş etdirdi. Ona görə də bu gün biz həmişə qəm, kədər içində oluruq. Amma eyni zamanda böyük qürur hissi keçiririk ki, xalqımız qəhrəman xalqdır, əyilməz xalqdır, sınmaz xalqdır.**

HEYDƏR
ƏLİYEV
AZƏRBAYCAN XALQININ
ÜMUMMİLLİ LİDERİ



**20 Yanvar günü bizim böyük faciəmizdir, ancaq eyni zamanda, Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsidir. 20 Yanvarda sovet rejiminin hərbi, siyasi və mənəvi təcavüzünə məruz qalmış Azərbaycan xalqı öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu bütün dünyaya nümayiş etdirdi. Azərbaycanda haqq-ədalətin müdafiəsi yolunda canlarından keçmiş Vətən övladları Qanlı Yanvarda xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar.**

İLHAM ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

# QANUNÇULUQ

## hüquq jurnalı

N 1 - yanvar 2024

**TƏSİSÇİ:**

**Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyi**

**BAŞ REDAKTOR:**

**Fikrət Məmmədov**

**REDAKSİYA HEYƏTİ:**

**Fuad Ələsgərov**
**Toğrul Musayev**
**Azər Cəfərov**
**Adil Əliyev**
**Cavid Hüseynov**
**Elçin Xələfov**

*"Qanunçuluq" jurnalı 1966-cı ildən nəşr olunur. Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğu sahəsində görülən işləri, ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatını, ədliyyə və məhkəmə fəaliyyətini işıqlandırır, öz səhifələrində görkəmli alimlərin, təcrübəli hüquqşünasların məqalələrinə və gənc mütəxəssislərin çıxışlarına yer verir, Azərbaycan ədliyyəsinin tarixi, məhkəmə təcrübəsi və digər mövzularda materiallar, eləcə də yeni qəbul olunan qanunların, fərmanların və digər normativ-hüquqi aktların mətnlərini müntəzəm şəkildə dərc edir.*

© "Ədliyyə Nəşriyyat Evi"MMC

# Bu sayımızda

## RƏSMİ MƏLUMAT

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 20 Yanvar faciəsinin 34-cü ildönümü ilə əlaqədar Şəhidlər xiyabanını ziyarət ediblər ....4
Prezident İlham Əliyevin respublikamızın cənub bölgəsinə səfəri ....6

## ƏDLİYYƏ XƏBƏRLƏRİ

Ədliyyə işçiləri şəhidlərimizin xatirəsini ehtiramla yad ediblər ....10
Ədliyyə Nazirliyində 2023-cü ilin yekunlarına həsr olunan geniş kollegiya iclası keçirilib ....11
Ədliyyə naziri Ağcabədidə vətəndaşları qəbul edib ....13
Gənclər ədliyyə orqanlarında geniş təmsil olunurlar ....14
Ədliyyə Nazirliyində ATƏT DTİHB Seçki Müşahidə Missiyasının nümayəndə heyəti ilə görüş ....16
Məhkəmə ekspertizası mərkəzinin fəaliyyəti təkmilləşdirilir ....16
Penitensiar xidmətdə ötən ilin yekunları mızakirə olunub ....18
Beynəlxalq axtarışda olan şəxs Kolumbiyada tutularaq Azərbaycana ekstradisiya edilib....19
Ədliyyə Nazirliyində notariat sahəsində aktual məsələlərlə bağlı onlayn brifinq keçirilib ....20

## YENİ QANUNLAR, FƏRMANLAR...

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1061-VIQD nömrəli Qanunu....22
"Məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1062-VIQD nömrəli Qanunu ....30
Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1063-VIQD nömrəli Qanunu....30
Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının 2023-cü il 26 dekabr tarixli 1079-VIQD nömrəli Qanunu....32
"Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının 2023-cü il 26 dekabr tarixli 1083-VIQD nömrəli Qanunu ....32
Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Azərbaycan Respublikası Silahlı Qüvvələri Daxili xidmət nizamnaməsinin təsdiq edilməsi haqqında" və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının 2023-cü il 30 dekabr tarixli 1087-VIQD nömrəli Qanunu ....33
"Arbitraj haqqında" Azərbaycan Respublikasının 2023-cü il 26 dekabr tarixli 1077-VIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 25 yanvar tarixli 2455 nömrəli Fərmanı....36
"Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2024-cü 19 yanvar tarixli 2457 nömrəli Fərmanı ....37

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 20 Yanvar faciəsinin 34-cü ildönümü ilə əlaqədar Şəhidlər xiyabanını ziyarət ediblər









**Qanlı 20 Yanvar faciəsindən 34 il keçir. Sovet imperiyasının Bakıda törətdiyi qanlı qırğının 34-cü ildönümü ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yanvarın 20-də - Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanını ziyarət ediblər.**

Dövlətimizin başçısı ölkəmizin azadlığı uğrunda həlak olanların xatirəsini yad edib.

Prezident İlham Əliyev "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

***

Otuz dörd il bundan əvvəl 20 Yanvar günü Azərbaycan xalqının tarixinin həm faciəli, kədərli səhifəsi, həm də qəhrəmanlıq, rəşadət səhifəsidir. Ümummilli Lider Heydər Əliyev vaxtilə 20 Yanvar hadisələrini belə səciyyələndirirdi. Ulu Öndər böyük uzaqgörənliklə deyirdi ki, biz o günlərdən nə qədər çox uzaqlaşsaq, həmin günlərin Azərbaycan xalqının tarixində necə mühüm yer tutduğunu bir o qədər dərindən dərk edəcəyik. Ancaq bir şey həqiqətdir ki, 1990-cı ilin 20 Yanvarı Azərbaycan xalqının həyatında dönüş mərhələsi, dönüş nöqtəsi olub.

Həmin faciəli günlərdən artıq 34 il keçir. Ümummilli Lider Heydər Əliyevin dediyi kimi, 20 Yanvarın tariximizdə tutduğu yeri bu gün daha aydın görürük. Həmin gün Azərbaycan xalqı öz azadlığı və müstəqilliyi uğrunda ilk şəhidlərini verdi. Azadlığa gedən yolda həyatlarını qurban verən Vətən övladları misilsiz fədakarlıqları ilə xalqımızın qəhrəmanlıq salnaməsinə yeni parlaq

səhifə yazdılar. Xalqın birliyi və milli ləyaqət hissi top-tüfəngə qalib gəldi və bu, 20 Yanvarı səciyyələndirən ən mühüm məqamlardan biridir.

Qanlı 20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verilməsi məsələsi Ümummilli Lider Heydər Əliyevin sayəsində həllini tapdı. Faciənin ertəsi günü - yanvarın 21-də Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək xalqla birgə olduğunu bildirdi, 20 Yanvar faciəsinə siyasi qiymət verdi, onun hüquqa, demokratiyaya, humanizmə zidd olduğunu, mərkəzin və ozamankı respublika rəhbərlərinin xəyanəti üzündən baş vermiş siyasi səhv olduğunu bəyan etdi. O, faciə ilə əlaqədar xalqımıza başsağlığı verdi və mətbuat konfransı keçirib Bakıdakı terror aktına rəvac verən hakimiyyət nümayəndələrini və hərbçiləri cinayətkar, onların dinc əhaliyə tutduqları divanı isə bütöv bir xalqa qarşı edilən tarixi cinayət adlandırdı. Bu tarixi çıxışın mətni Kremlin kəskin informasiya blokadası siyasətinə baxmayaraq, bütün dünyada, o cümlədən Azərbaycanda yayıldı və geniş əks-səda doğurdu. Azərbaycan xalqının qəlbində ümid çırağı yandı. 1990-cı ilin iyulunda Moskvadan Vətənə qayıdan Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə həmin il noyabrın 21-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində 20 Yanvar faciəsinə ilk dəfə siyasi-hüquqi qiymət verən qərar qəbul edildi. Azərbaycan xalqının ümumi rəyini özündə təcəssüm etdirən bu qərar Ulu Öndər Heydər Əliyev qətiyyətinin təzahürü kimi tarixə düşdü. Sənəddə respublika səviyyəsində 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymətin verilməsi ölkə rəhbərliyindən tələb edilirdi. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra da 1993-cü ilə qədər iqtidarda olanların heç biri faciə ilə bağlı əsl həqiqəti aşkar etməyə özündə cəsarət tapmadı.

Yalnız Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra 20 Yanvar hadisələrinin hüquqi müstəvidə əsl mahiyyəti açıqlandı. 1994-cü il yanvarın 12-də keçirdiyi müşavirədə Ulu Öndər Heydər Əliyev bu barədə deyirdi: "Xalqa təcavüz olunmuş, günahkarlar isə hələ müəyyənləşdirilməmişdir. Görünür ki, ötən yaxın illərdəki Sovetlər Birliyi, respublika rəhbərliyi, məsul şəxslər öz mənafeləri naminə bu böyük faciənin əsl mahiyyətini xalqa bəyan etməmişlər".

Ümummilli Lider Heydər Əliyevin "20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında" 1994-cü il 5 yanvar tarixli Fərmanında Azərbaycan Respublikasının Milli Məclisinə Qanlı Yanvar hadisələri ilə bağlı xüsusi sessiyanın keçirilməsi məsələsinə baxmaq tövsiyə edildi. Milli Məclisin 1994-cü il martın 29-da qəbul etdiyi Qərarda 20 Yanvar faciəsinin günahkarları konkret qeyd olundu və bu qanlı aksiya Azərbaycanda milli azadlıq hərəkatını boğmaq, xalqın inamını, iradəsini qırmaq üçün totalitar kommunist rejimi tərəfindən törədilmiş hərbi təcavüz və cinayət kimi qiymətləndirildi. Şəhidlərin xatirəsi əbədiləşdirildi, Şəhidlər xiyabanında "Əbədi məşəl" abidə-kompleksi ucaldıldı, 20 Yanvar Ümumxalq Hüzn Günü elan edildi, şəhid ailələrinin, 20 Yanvar hadisələrində əlil olan şəxslərin sosial müdafiəsi gücləndirildi.

Ölkəmizdə 20 Yanvar əlillərinə və şəhid ailələrinə daim diqqət və qayğı göstərilir. Əlillərin reabilitasiyası üçün sağlamlıq mərkəzləri yaradılıb, 20 Yanvar əlilləri və şəhid ailələri dövlət büdcəsi hesabına mənzillə təmin edilib.

Bu gün əminliklə deyə bilərik ki, Ulu Öndər Heydər Əliyevin, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş bütün şəhidlərin ruhu şaddır. Çünki 2020-ci ildə qalib Azərbaycan Ordusu xalqımızın 30 illik həsrətinə son qoydu, torpaqlarımızı erməni işğalından azad edərək bölgədə yeni reallıq yaratdı. 2023-cü ilin sentyabrında həyata keçirilən uğurlu antiterror tədbirləri nəticəsində isə suverenliyimiz tam bərpa olundu. İndi bütün ərazilərimizdə Azərbaycanın üçrəngli Bayrağı dalğalanır. İşğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı quruculuq işləri davam etdirilir. Artıq keçmiş məcburi köçkünlər işğaldan azad olunmuş ərazilərə, doğma torpaqlarına qayıdırlar. İndi bu torpaqlarımızda həyat yenidən canlanmağa başlayır.

Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunması həm də 20 Yanvar şəhidlərinin, ümumilikdə torpaqlarımızın işğaldan azad edilməsi yolunda canlarını qurban vermiş bütün şəhidlərimizin qanının yerdə qalmadığının sübutudur. Odur ki, xalqımız 20 Yanvar faciəsinin 34-cü ildönümünü xüsusi qürur hissi ilə qeyd edir.

# Prezident İlham Əliyevin respublikamızın cənub bölgəsinə səfəri

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 16-da ölkəmizin cənub bölgəsində səfərdə olub.**

Əvvəlcə Lənkəran şəhərinə gələn dövlətimizin başçısı Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub.

Səfər zamanı Prezident İlham Əliyev "Lenk Fruit" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) Lənkəran rayonunun Separadi kəndində yeni salınmış sitrus bağında yaradılan şəraitlə tanış olub. Məlumat verilib ki, 110 hektar sahədə naringi və limon, 20 hektarda şaftalı, 5 hektar sahədə nektarin və 7 hektarda giləmeyvə bağı salınıb.

Sonra dövlətimizin başçısı Lənkəran regional "ASAN xidmət" mərkəzinin açılışını edib. Ölkə rəhbərinə mərkəzdə tətbiq olunacaq innovativ yeniliklər - İntellektual məhsul ixracı, Etimad Fondu, Dövlət Xidmətlərinin Akselerasiya Mərkəzi, Universal operator, Süni intellekt əsaslı xidmətlər və smart qolbaq barədə məlumat verilib.

Prezident İlham Əliyev həmçinin Lənkəranda yeni inşa edilmiş müasir penitensiar kompleksdə yaradılan şəraitlə tanış olub *(Bu barədə geniş məlumat jurnalımızın hazırkı buraxılışında dərc olunur).*

Səfər zamanı Lənkəranda "Laran" MMC-nin qənnadı məhsullarının istehsalı müəssisəsinin fəaliyyəti ilə də tanış olan ölkə başçısına məlumat verilib ki, müəssisədə 5 növdə və 56 çeşiddə, o cümlədən karamel, lokum, şokoladlı lokum, marmelad, şokoladlı marmelad istehsal edilir. Məhsullar daxili bazarla yanaşı, Rusiya, İsrail, Özbəkistan, Qazaxıstan, Türkmənistan, Moldova və İraqa da ixrac olunur.

Prezident İlham Əliyev cənub bölgəsinə səfəri zamanı Neftçala rayonunda da olub, içməli su təchizatı sistemlərinin istismara verilməsi tədbirində iştirak edib. Bildirilib ki, qısa müddət ərzində Şirvan-Muğan qrup su kəmərindən Neftçala şəhərinə qədər diametri 560 millimetr, uzunluğu 40 kilometr olan birinci magistral su kəməri çəkilib və Salyan şəhəri yaxınlığında tutumu 7500 kubmetr olan su anbarı inşa edilib. 2020-ci ilin noyabr ayında Neftçala şəhərinə suyun verilməsi təmin olunub. 2023-cü ildə Neftçala rayonunun qəsəbə və kəndlərinin su təchizatına xidmət edəcək diametrləri 560-450 millimetr, uzunluğu 36 kilometr olan ikinci magistral su kəmərinin tikintisi işləri yekunlaşıb.

**Azərbayjan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 16-da Ədliyyə Nazirliyinin Lənkəranda yeni inşa olunmuş müasir penitensiar kompleksində yaradılan şəraitlə tanış olub.**

Ədliyyə naziri Fikrət Məmmədov ölkə başçısına yeni penitensiar müəssisə barədə məlumat verib.

Bildirilib ki, ümumi saxlama limiti 1300 nəfərlik olan penitensiar kompleks iki zonadan ibarətdir. Burada istintaq təcridxanasında barəsində həbs qətimkan tədbiri seçilmiş şəxslərin, cəzaçəkmə müəssisəsində isə məhkumların məhkəmə hökmünə əsasən müxtəlif rejimlərdə saxlanılması nəzərdə tutulur. Müəssisədə əsasən cənub zonası və bu bölgəyə yaxın olan ərazilərdə yaşayan şəxslər saxlanılacaq ki, bununla onlar öz ailələri ilə daha asan və rahat görüşə biləcəklər.

Kompleksdə kamera tipli 7 korpus inşa olunub və burada hər cür şərait yaradılıb. Məhkumların hüquqlarının etibarlı təmin olunması məqsədilə onların ailələri ilə uzunmüddətli görüş üçün zəruri məişət











avadanlığı ilə təchiz edilmiş 19 studio mənzil tipli otaqlar, habelə qısamüddətli görüşlər üçün kabinələr istifadəyə verilib. Burada məhkumların asudə vaxtlarını səmərəli keçirmələri üçün kitabxana, televizor otağı, idman meydançası var. Müəssisədə istehsalat sahələri yaradılıb, bərbərxana, dərzi xidmətləri təşkil edilib.

Diqqətə çatdırılıb ki, saxlanılan şəxslərə yüksəkkeyfiyyətli tibbi xidmətin göstərilməsi üçün kompleksin müasir avadanlıqla və geniş dərman çeşidləri ilə təchiz olunmuş Tibb-sanitar bölməsi fəaliyyət göstərir. Bölmədə kardioloq, stomatoloq, fizioterapevt, rentgen, ultrasəs müayinəsi, cərrahiyyə, manipulyasiya, ambulator və stasionar şəraitdə müayinə və müalicə otaqları, laboratoriya, intensiv terapiya çarpayıları olan kamera-palatalar mövcuddur.

Kompleksdə saxlanılan şəxslər üçün, həmçinin psixoloq və ibadət otaqları ayrılıb. Eyni zamanda, məhbusların keyfiyyətli qidalanmasını təmin etmək üçün müasir avadanlıqla təchiz edilmiş mətbəx, yeməkxana, habelə sənaye tipli qurğuları olan camaşırxana yaradılıb. Mühafizəni təmin edən əsgərlər üçün ərazidə kazarma, təlim otaqları, qarovul binası, kinoloji mərkəz, avtopark inşa olunub.

Bundan əlavə, məhbusların məhkəmə iclaslarında məsafədən - videokonfrans vasitəsilə iştirakı, habelə telefon danışıqları və videogörüş üçün lazımi avadanlıqla təchiz olunmuş xüsusi otaqlar qurulub, istintaq hərəkətlərinin aparılması, vəkilləri ilə görüşləri üçün zəruri şərait yaradılıb.

Kompleksla tanışlıq zamanı dövlətimizin başçısına müəssisədə quraşdırılmış "ƏN TEZ" (Ədliyyə Nazirliyinə Təcili Elektron Zəng) Xidmət platforması nümayiş etdirilib.

Ədliyyə Nazirliyinin innovativ məhsulu olan "ƏN TEZ" Xidməti əmək, maliyyə və digər resurslara qənaət etməklə









istənilən yerdə virtual platforma əsasında vətəndaşlara nazirliyə videozəng vasitəsilə müraciət edərək məsafədən müxtəlif ədliyyə xidmətlərindən (notariat, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı, məhkəməyə müraciət və məhkəmə qərarlarının icrası və s.) eyni vaxtda yararlanmaq imkanı verir. Həmçinin əhaliyə xidmət sahəsində ölkədə ilk dəfə bu platformada tətbiq edilən "süni intellekt" insanın davranışını vizuallaşdıraraq xidmət üçün müraciət etmiş şəxslə ünsiyyət qurur, istəyinə uyğun sənədlərin hazırlanmasını və təqdim olunmasını təmin edir.





Smart konsepsiyaya əsaslanan "ƏN TEZ" Xidmətində vətəndaşın şəxsiyyəti "Üztanıma" sistemi əsasında avtomatlaşdırılmış qaydada eyniləşdirilir, xidmət üzrə sənədlər isə ani vaxt rejimində icra edilərək yerindəcə çap olunur.

Bu yeni platforma Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü olan DOST, habelə "ASAN xidmət" mərkəzlərində, Heydər Əliyev Beynəlxalq Aeroportunda artıq tətbiq edilir.

"ƏN TEZ" Xidmətin Lənkəran penitensiar kompleksində istifadəyə verilməsi məhkumlara, onlarla görüşə gələn vətəndaşlara, eləcə də müəssisənin

əməkdaşlarına ədliyyə xidmətlərindən yerində bəhrələnmək imkanı verəcək.

Kompleksin yerləşdiyi ərazidə əməkdaşlar üçün altımərtəbəli 30 mənzilli xidməti yaşayış binası inşa edilib.

Prezident İlham Əliyevə Bakının Umbakı qəsəbəsində yeni istifadəyə verilmiş penitensiar kompleks barədə də məlumat verilib. Bildirilib ki, beynəlxalq standartlara uyğun inşa olunmuş Umbakı penitensiar kompleksi də qarışıq rejimli olmaqla iki zonadan - istintaq təcridxanasından və cəzaçəkmə müəssisəsindən ibarətdir. Təcridxanada təqsirləndirilən şəxslər, müəssisədə isə ağır və digər cinayət törətməyə görə azadlıqdan məhrum edilmiş məhkumlar saxlanılırlar. Kompleksdə 19 müxtəlif rejimli kamera tipli korpus mövcuddur. Burada məhkumların hüquqlarının daha etibarlı təmin olunması, yüksəkkeyfiyyətli tibbi xidmətin göstərilməsi, asudə vaxtın səmərəli təşkili üçün hər cür şərait yaradılıb.

Qeyd edək ki, paytaxtda və bölgələrdə yeni penitensiar müəssisələrin tikilməsi ölkəmizdə aparılan köklü islahatların tərkib hissəsidir. Bu müəssisələrdə yaradılan müasir şərait məhkumların hüquqlarının təminatına, onların öz ailələrinə yaxın ərazilərdə cəza çəkmələrinə və cəmiyyətə reinteqrasiyasına xidmət edir.









# Ədliyyə işçiləri şəhidlərimizin xatirəsini ehtiramla yad ediblər

**20 Yanvar - Ümumxalq Hüzn Günü ilə bağlı ədliyyə orqanlarında tədbirlər keçirilib. Ədliyyə naziri Fikrət Məmmədov, nazirliyin rəhbər heyəti və kollektivi Şəhidlər xiyabanında Vətən uğrunda canlarını fəda etmiş həmvətənlərimizin məzarlarını ziyarət edərək üzərinə gül dəstələri qoyub, əziz xatirəsini ehtiramla anıblar.**

Nazirlikdə keçirilən mərasimlərdə xalqımızın müstəqillik, azadlıq uğrunda mübarizəsinin və yenilməz iradəsinin rəmzinə çevrilən 20 Yanvar faciəsinin tarixi-siyasi mahiyyətinə nəzər salınıb. Ulu Öndər Heydər Əliyevin baş vermiş qanlı hadisələrə ilk dəfə siyasi-hüquqi qiymət verdiyi, faciə qurbanlarının xatirəsinin xalqımızın qəlbində əbədi yaşadığı, şəhid ailələrinin və əlillərin hər zaman dövlət qayğısı ilə əhatə olunduğu bildirilib.






Vurğulanıb ki, bu gün Vətən uğrunda canlarından keçmiş bütün şəhidlərin ruhu şaddır. Ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə qüdrətli dövlətimizin, qalib ordumuzun və xalqımızın birliyi sayəsində doğma torpaqlarımız işğaldan azad edilərək ərazi bütövlüyümüz və suverenliyimiz tam təmin olunub. Azərbaycanın üçrəngli bayrağı Qarabağın hər yerində vüqarla dalğalanır, həmin ərazilər genişmiqyaslı quruculuq işləri aparılmaqla yenidən dirçəlir.

Ədliyyə işçiləri doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladlarının fədakarlığını heç zaman unutmur, şəhidlərimizin xatirəsini daim uca tutaraq qürur və ehtiramla yad edirlər.

# Ədliyyə Nazirliyində 2023-cü ilin yekunlarına həsr olunan geniş kollegiya iclası keçirilib






















**Yanvarın 31-də ədliyyə naziri Fikrət Məmmədovun sədrliyi ilə 2023-cü ildə ədliyyə orqanları tərəfindən görülmüş işlərin və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunan geniş kollegiya iclası keçirilib. İclasda nazirliyin rəhbərliyi və məsul işç-iləri, Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin və regional ədliyyə qurumlarının rəhbər şəxsləri iştirak ediblər.**

Tədbirdən öncə ulu öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Çıxış edən nazir 2023-cü ilin xalqımız və dövlətimiz üçün uğurlu və əlamətdar il olduğunu, Ümummilli Liderin 100 illik yubileyi ilə əlaqədar elan edilmiş "Heydər Əliyev İli"ndə Ədliyyə Nazirliyi tərəfindən Ulu Öndərin xalqımızın milli sərvəti olan zəngin irsinə həsr olunan silsilə tədbirlərin keçirildiyini vurğulayıb.

Dahi liderin yolu ilə gedən müasir müstəqil Azərbaycanın son 20 ildə hərtərəfli davamlı tərəqqisindən, Böyük Qələbəmizlə azad edilmiş torpaqlarımızda aparılan geniş quruculuq işlərindən bəhs edib. Bildirib ki, 2023-cü il ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunması ilə zəfər salnaməmizə qızıl hərflərlə əbədi həkk olunub. Bu gün üçrəngli bayrağımız Qarabağın hər yerində, qədim diyarımız Xankəndidə, Şuşada vüqarla dalğalanır. Həmvətənlərimiz öz doğma yurdlarına dönür, onların konstitusion hüquqları tam təmin olunur.

Nazir qarşıdan gələn növbədənkənar prezident seçkilərinə toxunaraq müstəqillik tariximizdə ilk dəfə seçkilərin ölkəmizin bütün ərazisində keçiriləcəyini, minlərlə seçicinin, öz torpaqlarına qayıdan vətəndaşlarımızın Qarabağ və Şərqi Zəngəzurda səs verəcəyini vur-

ğulayıb.

İclasda ölkəmizin hərtərəfli tərəqqisinə uyğun olaraq ədliyyə fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı görülən tədbirlər ətraflı təhlil olunaraq məlumat verilib ki, vətəndaşların, xüsusilə şəhid ailələrinin, müharibə veteranlarının müraciətlərinə daim qayğı və həssaslıqla yanaşılaraq 19 mindən çox vətəndaş nazirlikdə, bölgələrdə, habelə virtual qaydada qəbul edilib, qaldırılan məsələlərlə bağlı zəruri tədbirlər görülüb.

2023-cü ildə iqtisadi inkişafa, əhalinin sosial rifahına xidmət edən Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarının, qanunların qəbul olunduğu vurğulanaraq nazirlik tərəfindən 5.700-dək hüquqi akt layihəsinin hazırlandığı və ya ekspertizadan keçirildiyi, bu zaman sui-istifadəyə, hüquqi qeyri-müəyyənliyə yol verilməməsi, habelə insan hüquqlarının təminatı, digər qanunvericilik aktlarına və beynəlxalq hüquqi sənədlərə uyğunluğu məsələlərinə xüsusilə diqqət yetirildiyi bildirilib. Qeyd olunub ki, 3.000-dən çox sənəd Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilib, milli qanunvericiliyin e-qanun.az vahid elektron resursundan bəhrələnənlərin sayı 50% artaraq 5 milyona çatıb.

Əhalinin hüquqi biliklərinin artırılması məqsədilə nazirlik tərəfindən səmərəli kommunikasiya strategiyası həyata keçirildiyi, ötən il 8.500-ə yaxın hüquqi maarifləndirmə işi aparıldığı, media subyektləri və vətəndaş cəmiyyəti cəlb olunmaqla brifinq, ictimai təqdimat, "açıq qapı" günləri və media-turlar təşkil edildiyi bildirilib, vahid kommunikasiya siyasəti ilə bağlı yüksək göstəricilərə nail olunduğu qeyd edilib. Kollegiyada nazirliyin 2024-2026-cı illər üzrə hazırlanmış yeni Kommunikasiya Strategiyası müzakirə edilərək təsdiq olunub.

İclasda ölkəmizin iqtisadi tərəqqisi və mülki dövriyyənin artması nəticəsində 5.2 milyon notariat hərəkətinin, 290 min vətəndaşlıq vəziyyəti aktının rəsmiləşdirildiyi bildirilib. Nikahların sayı 54 mini, doğum halları 113 mini ötüb. Notariuslar tərəfindən aparılan əməliyyatlar nəticəsində, o cümlədən bununla bağlı tutulan vergi üzrə ümumilikdə 75 milyona yaxın vəsait dövlət büdcəsinə köçürülüb.

Nazirliyin əhaliyə təqdim etdiyi elektron və mobil xidmətlərin tətbiqi genişləndirilib, il ərzində e-xidmətlərdən ümumi istifadə sayı 3 milyona, "Mobil notariat" istifadəçilərinin sayı isə 2 dəfə artaraq 900 minə çatıb.

Eyni zamanda nazirliyin innovativ məhsulu olan "ƏNTEZ" (Ədliyyə Nazirliyinə Təcili Elektron Zəng) xidmət platformasının vətəndaşlara eyni vaxtda müxtəlif ədliyyə xidmətlərinin göstərilməsində əhəmiyyəti qeyd olunub. Bildirilib ki, ölkədə ilk dəfə dövlət xidmətləri sahəsində bu platformada süni intellektin tətbiqi insanın davranışını vizuallaşdıraraq xidmət üçün müraciət etmiş şəxslə ünsiyyət qurur və istəyinə uyğun sənədlərin hazırlanmasını və təqdim olunmasını təmin edir. "ƏNTEZ" Xidmətdə həmçinin, vətəndaşın şəxsiyyəti "Üz tanıma" sistemi əsasında avtomatlaşdırılmış qaydada eyniləşdirilir, xidmət üzrə sənədlər isə ani vaxt rejimində icra edilərək yerindəcə çap olunur. Artıq bu platforma "ASAN xidmət" və DOST mərkəzlərində, Heydər Əliyev Beynəlxalq Aeroportunda tətbiq edilir.

Kollegiyada məhkəmə qərarlarının icrası işinin səmərəliliyinin artırılması, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, "Elektron icra" informasiya sisteminin, özəl icra institutunun tətbiqi ilə bağlı görülən işlərdən danışılıb, həyata keçirilən təsirli tədbirlər nəticəsində 2023-cü ildə icrası təmin edilən işlərin sayının 10%-dən çox artaraq 570 minə yaxın sənədin icrasının təmin edildiyi, hüquqi və fiziki şəxslərə 1 milyard manata yaxın, o cümlədən aliment tələbləri üzrə 80 milyon manata qədər vəsaitin ödətdirildiyi qeyd olunub.

Azadlıqdan məhrumetməyə alternativ cəzaların icrası diqqətdə saxlanılaraq hazırda 5.200-dən artıq məhkuma elektron nəzarət vasitəsi tətbiq edildiyi bildirilib, dövlətimizin humanist siyasətinin təzahürü olaraq ulu öndər Heydər Əliyevin 100 illiyi münasibətilə imzalanmış müstəqillik tariximizin ən böyük əfv aktı ilə 801 məhkumun azadlıqdan məh-

rum etmə və digər cəzalardan azad edildiyi vurğulanıb. Ədliyyə infrastrukturunun müasirləşdirilməsi, o cümlədən məhkumların saxlanma şəraitinin yaxşılaşdırılması ilə bağlı görülən tədbirlər qeyd olunub.

Kollegiyada yerli demokratiyanın inkişafında mühüm rol oynayan bələdiyyələrin fəaliyyətində qanunçuluğun təmin olunması, onlara metodoloji yardımın göstərilməsi üzrə görülən tədbirlər qeyd edilib, nazirlik tərəfindən inzibati nəzarətin həyata keçirilməsi ilə bağlı hazırlanmış 2023-cü il üzrə İllik Məruzə müzakirə olunaraq Milli Məclisə təqdim olunması qərara alınıb.

Bundan əlavə, nazirliyin beynəlxalq hüquqi əməkdaşlığına toxunularaq ötən il hüquqi yardım, ekstradisiya və digər məsələlərlə bağlı 24 mindən artıq sorğunun icrasının təmin edildiyi, habelə ədliyyə sahəsində nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin həyata keçirildiyi və təcrübə mübadiləsinin aparıldığı, Azərbaycanın nailiyyətlərinə böyük maraq göstərən Belarus ədliyyə nazirinin birinci müavininin başçılıq etdiyi nümayəndə heyətinin hazırda ölkəmizdə səfərdə olduğu diqqətə çatdırılıb.

İclasda nazir müavinlərinin, baş idarə və idarə rəislərinin, Naxçıvan MR Ədliyyə Nazirliyinin və regional ədliyyə qurumlarının rəhbərlərinin çıxışları dinlənilib.

Görülmüş işlərlə yanaşı, qarşıda duran vəzifələr müzakirə edilib, insanlara qayğılı münasibət göstərilməsi, vətəndaş məmnunluğunun yüksəldilməsi, şəffaflığın artırılması, nizam-intizama, etik davranış qaydalarına dönmədən riayət olunması ilə bağlı və digər konkret tapşırıqlar verilib.

Ədliyyə fəaliyyətinin müasir çağırışlara uyğun təkmilləşdirilməsi, nazirliyin elektron informasiya sistemlərinin imkanlarından istifadə olunmaqla işin səmərəli qurulması, elektron monitorinqlərin təşkili, elektron sənəd dövriyyəsi sisteminə tam keçidin təmin edilməsi, Naxçıvan MR Ədliyyə Nazirliyinin və regional ədliyyə qurumlarının işinin səmərəliliyinin artırılması və onlara əməli köməkliyin gücləndirilməsi ilə bağlı və digər aidiyyəti tədbirlər müəyyən edilib.

Sonda bir sıra qeyri-kommersiya hüquqi şəxslər dövlət qeydiyyatına alınıb.

# Ədliyyə naziri Ağcabədidə vətəndaşları qəbul edib

**Ölkə Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq ədliyyə naziri Fikrət Məmmədov yanvarın 12-də Ağcabədi rayonunda Ağcabədi, Ağdam, Laçın və digər rayonlardan olan vətəndaşları qəbul edib.**



Əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsi ziyarət olunaraq, önünə gül dəstələri qoyulub, əziz xatirəsinə dərin ehtiram bildirilib.

Qəbul zamanı nazir Müzəffər Ali Baş Komandan cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə parlaq qələbələrimizlə torpaqlarımızın işğaldan azad edilməsindən, həmin əra-

zilərdə aparılan bərpa-quruculuq işlərindən, keçmiş məcburi köçkünlərimizin öz dədə-baba yurdlarına qayıdışından bəhs edib, həmin rayonlardan olan vətəndaşların qayğıları ilə maraqlanıb.

Eyni zamanda hər bir vətəndaş diqqətlə dinlənilərək onların ədliyyə fəaliyyəti ilə bağlı müraciətlərinə baxılıb, bu zaman müharibə veteranlarının və şəhid ailələrinin qayğılarına xüsusi həssaslıqla yanaşılıb, qaldırılan məsələlərə dair aidiyyəti tapşırıqlar verilib.

Bölgə sakinləri həsrətində olduqları öz doğma torpaqlarına qayıtmaq arzusunu reallaşdırdığına, onların qayğılarına hər zaman diqqət və həssaslıqla yanaşılmasına görə ölkə Prezidentinə minnətdarlıqlarını ifadə edib, yerlərdə səyyar qəbulların keçirilməsini məmnunluqla qarşılayıblar.

Səfər zamanı ədliyyə naziri yerli ədliyyə orqanlarına və məhkəməyə baş çəkərək iş şəraiti ilə tanış olub, fəaliyyətin səmərəli təşkili ilə bağlı tapşırıq və tövsiyələrini verib.

Ölkəmizin bu gününün və sabahının qarantı, sülhün və sabitliyin təminatçısı olan Prezident İlham Əliyevin rəhbərliyi ilə ötən 20 ildə respublikamızın hərtərəfli davamlı tərəqqisi qeyd olunub, 30 il işğal altında qalan ərazilərimizin azad edilməsi və suverenliyimizin tam bərpa olunması ilə yeni dövrün başlandığı vurğulanıb, qarşıda duran vəzifələr diqqətə çatdırılıb.

# Gənclər ədliyyə orqanlarında geniş təmsil olunurlar





**Ədliyyə orqanlarında insan resurslarının idarə edilməsi istiqamətində ardıcıl tədbirlər görülür, hazırlıqlı gənc hüquqşünasların qulluğa qəbulu məqsədilə aşkarlıq şəraitində şəffaflıq təmin olunmaqla davamlı müsabiqələr keçirilir.**

Bu günlərdə növbəti müsabiqəyə yekun vurularaq uğur qazanmış, əksəriyyətini gənclər təşkil edən hüquqşünaslar ədliyyə orqanlarına qulluğa qəbul edilib və müvafiq təyinatlar aparılıb.

Onlar Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edərək, abidəsi önünə gül dəstələri qoyub, əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər. Həmçinin Şəhidlər xiyabanında Vətən uğrunda canlarından keçən qəhrəman övladlarımızın xatirəsi anılıb.

Yanvarın 23-də yeni əməkdaşlarla ədliyyə naziri Fikrət Məmmədovun görüşü keçirilib.

Ədliyyə qulluğuna qəbul olunanları təbrik edən nazir ölkəmizin müasir inkişaf yolundan, Vətən müharibəsində Böyük Qələbəmizdən bəhs edib, ərazilərimizin işğaldan azad edilməsi və suverenliyimizin tam bərpa olunması ilə yeni dövrün başlandığını vurğulayıb.

Bildirilib ki, bu gün doğma torpaqlarımız bərpa-quruculuq işləri aparılmaqla sürətlə dirçəlir, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva həmin bölgəyə müntəzəm səfərlər edərək görülən tədbirlərlə tanış olur, şəhərlərimiz, kəndlərimiz yenidən qurulur, sosial-iqtisadi, enerji, nəqliyyat infrastrukturu yaradılır, tarixi, mədəni və dini






abidələrimizin əvvəlki siması özünə qaytarılır. Keçmiş məcburi köçkünlərimiz Böyük Qayıdışa dair I Dövlət Proqramına uyğun olaraq öz-dədə baba yurdlarına dönürlər.

Nazir qalib ölkənin vətəndaşı, müzəffər xalqın nümayəndələri olan Azərbaycan gənclərinin inkişafı ilə bağlı gö-rülən işlərdən danışıb, Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət gənclər siyasətinə uyğun olaraq həyata keçirilən bu tədbirlərin ötən 20 ildə daha geniş vüsət aldığını diqqətə çatdırıb.

Hərtərəfli dövlət qayğısı ilə əhatə olunan gənclərin ictimai həyatın bütün sahələrində, dövlət idarəçiliyində rolu və fəallığı artır. Ədliyyə orqanlarında da gənclər geniş təmsil olunur, onlara xüsusi qayğı ilə yanaşılır, mütəmadi görüşlər keçirilir. Gənclərin işlə təminatı daim diqqətdə saxlanılaraq şəffaf müsabiqə yolu ilə bu günədək 3.400-dən çox şəxs qulluğa qəbul olunub. Nazirliyin Müsabiqə Komissiyası tərəfindən keçirilən müsabiqələrdə uğur qazanan namizədlərin 70%-dən çoxu məhz gənclərdir. Həmçinin, əksəriyyəti ilk dəfə əmək fəaliyyətinə ədliyyə orqanlarında başlamaq istəyənlər, 35%-ni isə qadınlar təşkil edir.

F.Məmmədov nazirlik tərəfindən şəhid ailələrinə və müharibə iştirakçılarına daim qayğı və həssaslıqla yanaşıldığını diqqətə çatdıraraq onların qulluğa qə-bulunu, o cümlədən hazırda yeni təyinat alan şəxslər sırasında daha üç müharibə veterənının olduğunu qeyd edib.

Tədbirdə həmçinin, respublikamızın hərtərəfli inkişafına uyğun olaraq ədliyyə sistemində aparılan islahatlar, əhaliyə göstərilən innovativ ədliyyə xidmətləri, penitensiar infrastrukturun müasirləşdirilməsi üzrə görülən tədbirlər barədə məlumat verilib, paytaxtda və bölgələrdə yeni müasir penitensiar komplekslərin inşa edildiyi, ən yenisinin isə ötən həftə Lənkəranda istifadəyə verildiyi və dövlət başçısının penitensiar kompleksdə yaradılmış müasir şəraitlə tanış olduğu vurğulanıb.

Nazir ədliyyə orqanlarında qulluq keçmənin xüsusiyyətlərinə toxunaraq, gənc ədliyyə işçilərinə fəaliyyətlərində məsuliyyətli olmasını, qanunçuluq, insan hüquqları, humanizm prinsiplərinə, nizam-intizama, etik davranış qaydalarına dönmədən əməl olunmasını, korrupsiya və digər neqativ halların yolverilməzliyini diqqətə çatdırıb, onlara xidməti vəzifələrini layiqincə yerinə yetirmələri barədə tapşırıqlarını verib, uğurlu fəaliyyət arzulayıb.

Təyinat alanlar uğurla həyata keçirilən dövlət gənclər siyasətindən bəhrələnərək ədliyyə qulluğuna qəbul olunmalarından böyük qürur hissi keçirdiklərini bildirib, onlara göstərilən yüksək etimadı fəaliyyətləri ilə doğruldacaqlarına, ədliyyə işçisi adını daim uca tutaraq şərəflə daşıyacaqlarına söz veriblər.

Sonda qulluğa yeni qəbul olunmuş əməkdaşlar Azərbaycan Respublikasının Dövlət Bayrağı önündə təntənəli qaydada and içiblər, onlara xidməti vəsiqələr təqdim edilib.

# Ədliyyə Nazirliyində ATƏT DTİHB Seçki Müşahidə Missiyasının nümayəndə heyəti ilə görüş





**Yanvarın 24-də ədliyyə nazirinin müavini Toğrul Musayev ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar Seçki Müşahidə Missiyasının rəhbəri Eoqan Mörfi və üzvləri ilə görüşüb.**

Tədbirdə Seçki Müşahidə Missiyasının məqsəd və fəaliyyəti, Azərbaycana səfərinin və keçirdiyi görüşlərin əhəmiyyəti qeyd olunub, ölkəmizin ilk dəfə bütün ərazilərində keçiriləcək prezident seçkilərində ədliyyə orqanlarının vəzifələri, siyasi partiyaların seçkilərdə iştirakı, onların fəaliyyətinin yeni qanunvericiliyinin tələblərinə uyğun qurulması müzakirə edilib.

Qonaqlar penitensiar müəssisələrdə seçkilərin keçirilməsinin təşkili, seçici siyahılarının hazırlanmasında nazirliyin iştirakı, müvafiq məlumatların yoxlanılması ilə bağlı ekspertizanın keçirilməsi barədə məlumatlandırılıb.

İnteraktiv müzakirə şəraitində keçən görüşdə maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

# Məhkəmə ekspertizası mərkəzinin fəaliyyəti təkmilləşdirilir

**Ədalət mühakiməsinin həyata keçirilməsində və cinayətkarlığa qarşı mübarizədə mühüm rol oynayan Məhkəmə Ekspertizası Mərkəzinin fəaliyyətinin təkmilləşdirilməsi üzrə ardıcıl tədbirlər davam etdirilir.**

Yanvarın 26-da bu sahədə görülən işlərə və qarşıda duran vəzifələrə həsr olunmuş müşavirədə ədliyyə nazirinin müavini Vilayət Zahirov çıxış edərək dövlət başçısının "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanına uyğun olaraq məhkəmə ekspertizası fəaliyyətinin müasirləşdirilməsi və qanunvericiliklə müəyyən edilmiş vəzifələrin səmərəli icrası üzrə görülən tədbirləri, habelə kadr dəyişikliklərinin aparıldığını vurğulayıb.

Təqdimatla çıxış edən Mərkəzin rəisi Elçin Qasımov həmin Fərmanın icrasından irəli





gələn Ədliyyə Nazirliyi üzrə "Məhkəmə ekspertizası sahəsində fəaliyyətin yeni qanunvericiliyə uyğun təkmilləşdirilməsi üzrə tədbirlər barədə" əmrin icrası ilə bağlı görülmüş işlərə dair məlumat verib. 2023-cü ildə daxil olan ekspertiza işlərinin sayının artaraq 44 minə yaxınlaşdığını, 36 min ekspert rəyinin verildiyini, ekspertlər tərəfindən 1,8 milyonadək obyektin tədqiq edilərək məhkəmə və hüquq-mühafizə orqanlarının suallarının cavablandırıldığını, həmçinin onlara müxtəlif fəaliyyət istiqamətləri üzrə metodiki və profilaktik tədbirlərin güclən-dirilməsi məqsədilə 300-dək tövsiyə verildiyini qeyd edib.

Həmçinin, elmi-praktiki fəaliyyət diqqətdə saxlanılaraq 2023-cü ildə məhkəmə ekspertizasının aktual problemləri üzrə hüquq-mühafizə orqanları əməkdaşları, hakimlər və hüquqşünaslar üçün 70-dək mühazirə və praktiki məşğələlər keçirilib.

Mərkəzin fəaliyyətin rəqəmsallaşdırılması çərçivəsində ötən il ekspertizaların icra vəziyyətini izləməyə imkan verən elektron xidmət, habelə Məhkəmə Ekspertlərinin Reyestri, Məhkəmə Ekspertizası Tədqiqat Metodlarının Dövlət Reyestri və Məhkəmə ekspertizasının metodik fondu hazırlanıb və geniş ictimai təqdimatı keçirilib. İclasda həmin elektron resurslara dair video-çarx nümayiş etdirilib.

Mərkəzin beynəlxalq əlaqələrinə toxunularaq 2023-cü ildə Belarus, Hollandiya, və Özbəkistana məhsuldar səfərlər edildiyi, Türkiyə ilə məhkəmə ekspertizası sahəsində əməkdaşlıq haqqında Saziş çərçivəsində birgə tədbirlərin genişləndirildiyi, Özbəkistanla ədliyyə sahəsində imzalanmış Əməkdaşlıq Proqramına uyğun olaraq iki ölkənin məhkəmə ekspertizası idarələri arasında Anlaşma Memorandumunun hazırlandığı qeyd olunub, habelə ekspertlərin bir çox beynəlxalq elmi-praktiki konfranslarda iştirakı diqqətə çatdırılıb.

Müşavirədə Mərkəzin struktur qurum və regional bölmə rəhbərləri dinlənilərək görülən işlər, mövcud nöqsan və çatışmazlıqlar, onların aradan qaldırılması yolları müzakirə edilib, tədbirlər müəyyən olunub.

İclasa yekun vuran nazir müavini V.Zahirov qarşıda duran vəzifələri diqqətə çatdıraraq ekspertiza fəaliyyətinin keyfiyyətinin artırılması, akkreditasiya, elmi-tədqiqat və profilaktiki işlərin təkmilləşdirilməsi, icra intizamına və etik davranış qaydalarına dönmədən əməl olunması, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı və digər konkret tapşırıqlar verib.

# Penitensiar xidmətdə ötən ilin yekunları müzakirə olunub






**Yanvarın 19-da ədliyyə nazirinin müavini - Penitensiar xidmətin rəisi Mirsaleh Seyidovun sədrliyi ilə 2023-cü ildə görülmüş işlərə və qarşıda duran vəzifələrə dair əməliyyat müşavirəsi keçirilib.**

Nazir müavini bildirib ki, əlamətdar günlər və mühüm hadisələrlə zəngin olan 2023-cü il ölkəmizin dövlətçilik tarixinə parlaq Zəfərlə yazılıb. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə keçirilən lokal antiterror əməliyyatları nəticəsində dövlətimizin suverenliyi bərpa olunub, "Böyük Qayıdış" Dövlət Proqramı çərçivəsində məcburi köçkün düşmüş minlərlə vətəndaş öz doğma yurdlarına qayıdıb. Azərbaycan xalqı dərin ehtiram və böyük minnərdarlıq hissi ilə milli dövlətçiliyimizin xilaskarı, Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyini qeyd edib.

Azərbaycan xalqı möhtərəm Prezident cənab İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 20 il ərzində Ulu Öndərin ideya və amallarını uğurla inkişaf etdirərək dövlətimizin sosial-iqtisadi tərəqqisini, beynəlxalq reytinqlər üzrə sürətli və dayanıqlı inkişafını təmin etdiyinin şahidi olub. Bu gün dövlət başçısının rəhbərliyi ilə işğaldan azad edilmiş torpaqlarımız sürətlə bərpa olunur, bu istiqamətdə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə mühüm layihələr gerçəkləşdirilir.

Ötən dövrdə Penitensiar xidmətin infrastrukturunun yenilənməsi, fəaliyyətin təkmilləşdirilməsi, məhkum və həbs edilmiş şəxslərin saxlanma və maddi-məişət şəraitinin yaxşılaşdırılması, peşəkar kadr korpusunun formalaşdırılması, qanunçuluğun möhkəmləndirilməsi, fəaliyyətdə şəffaflığın artırılması və nizam-intizamın gücləndirilməsi üzrə ardıcıl tədbirlər həyata keçirilib. Penitensiar xidmətə işə qəbul sahəsində şəffaflığın və ictimai iştirakçılığın təmin edilməsi məqsədilə işə qəbul barədə elanlar verilib, Müsabiqə Komissiyasının tərkibinə İctimai Şuranın nümayəndələri daxil edilib.

Penitensiar xidmətin rəis müavini Oqtay Məmmədov xidmətin 2023-cü il ərzindəki fəaliyyətinin yekunlarına dair hesabat məruzəsi ilə çıxış edərək bildirib ki, ötən il cəzaçəkmə müəssisələrində saxlanılan şəxslər üzərində nəzarətin gücləndirilməsi və profilaktik işin daha səmərəli təşkili nəticəsində cinayətlərin, rejim pozuntularının sayı azalıb, narkotik və qadağan olunmuş əşyaların qanunsuz dövriyyəsi ilə mübarizədə müsbət nəticələrə nail olunub. Cinayətkarlıqla mübarizədə digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı fəaliyyətin daha səmərəli təşkili nəticəsində göstəricilər əldə edilib, daxili işlər və prokurorluq orqanları ilə keçirilən birgə tədbirlər nəticəsində 1997-ci ildə bir nəfərin, digər dövrlərdə 4 nəfərin qətlə yetirilməsi və bir nəfərin həyatına sui-qəsd faktları ilə bağlı qalmış cinayətləri törətmiş şəxslər müəyyən edilib, cinayət törətməkdə şübhəli bilinərək barəsində axtarış elan edilmiş bir nəfər saxlanılıb, 5 fakt üzrə Bakı şəhərinin ərazisində 21 kiloqramdan çox narkotik vasitələr

aşkar olunaraq qanunsuz dövriyyədən çıxarılıb.

Baş idarə və tabe qurumlarda təmir-abadlıq işləri aparılıb, əməkdaşların iş şəraitlərinin yaxşılaşdırılması məqsədilə xidməti otaqlar yeni avadanlıqlarla təchiz edilib. Xidmətin fəaliyyəti barədə cəmiyyətə vaxtında düzgün və dolğun məlumatların verilməsi, şəffaflığın artırılması, vətəndaş məmnuniyyətinin təmin edilməsi məqsədilə Çağrı mərkəzi, eləcə də sosial şəbəkələrdə yeni rəsmi səhifələr yaradılıb, xidmətin internet səhifəsi yenilənib. Cənab Prezidentin ədliyyə sahəsində inkişafın təmin edilməsi istiqamətində verdiyi tapşırıqlara uyğun olaraq aparılan köklü islahatlar çərçivəsində ötən ilin sonunda Bakının Umbakı qəsəbəsində və cari ilin əvvəlində Lənkəran şəhərində yeni penitensiar komplekslər istifadəyə verilib.

Məhkumların reinteqrasiya prosesinin gücləndirilməsi çərçivəsində ictimai faydalı əməyə cəlb olunmaları üçün digər dövlət qurumları ilə birlikdə yeni layihələrin həyata keçirilməsi, onlar üçün peşə kurslarının təşkili, yeni istehsalat sahələrinin yaradılması istiqamətində də uğurlara imza atılıb. Yeni yaradılmış istehsalat sahələrində ictimai faydalı əməyə cəlb olunan məhkumların sayında artım müşahidə olunub. Bu sahədə görülmüş işlər, habelə aparılan fərdi tərbiyəvi tədbirlər nəticəsində məhkumlar tərəfindən dəymiş ziyanın ödənilməsi 2,4 dəfə artıb.

Ötən dövr ərzində məhkumların Cəzaların İcrası Məcəlləsində nəzərdə tutulmuş hüquqlarının daha geniş tətbiq edilməsi məsələsinə də diqqət artırılıb. Nəticədə 2023-cü ildə 11 məhkumun müəssisənin hüdudlarından kənara qısamüddətli səfərə getməsinə şərait yaradılıb, Tərbiyə müəssisəsində saxlanılan və yetkinlik yaşına çatmayan 7 məhkum isə müəssisənin hüdudlarından kənarda keçirilən mədəni-kütləvi tədbirlərə tamaşa etmək üçün şəhər gəzintisinə çıxarılıb.

Müşavirədə Ədliyyə Nazirliyinin məsul rəhbər şəxslərinin və Penitensiar xidmətin tabe qurumlarının rəhbərlərinin çıxışları dinlənilib.

Əməliyyat müşavirəsinə yekun vuran ədliyyə nazirinin müavini - Penitensiar xidmətin rəisi M.Seyidov məhkumların və təqsirləndirilən şəxslərin hüquqlarının təmini, əməliyyat-axtarış və təhlükəsizlik tədbirlərinin gücləndirilməsi, rejim və davranış qaydalarına riayət olunması istiqamətində zəruri tədbirlərin həyata keçirilməsinə dair mühüm tapşırıqlar verib.

# Beynəlxalq axtarışda olan şəxs Kolumbiyada tutularaq Azərbaycana ekstradisiya edilib

**Ölkəmizdə sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, cinayətkarlıqla mübarizənin gücləndirilməsi, şəxsi mülkiyyətin qorunması üzrə önəmli tədbirlər görülür.**




Bu sahədə beynəlxalq əməkdaşlığa mühüm əhəmiyyət verilərək Əfdliyyə Nazirliyi tərəfindən müxtəlif ölkələrlə ikitərəfli müqavilələr və çoxtərəfli konvensiyalar üzrə cinayət törətmiş şəxslərin təslim edilməsi (ekstradisiya) sahəsində səmərəli qarşılıqlı fəaliyyət həyata keçirilir, eyni zamanda müvafiq müqavilə olmadığı təqdirdə qarşılıqlıq prinsipinə əsasən tədbirlər görülür.

Həmçinin paytaxtda və bölgələrdə beynəlxalq standartlara uyğun yeni penitensiar komplekslər inşa olunur. Ən yenisi isə yanvarın 16-da Lənkəranda istifadəyə verilib və dövlət başçısı penitensiar kompleksdə yaradılmış müasir şəraitlə tanış

olub. Məhkumların və təqsirləndirilən şəxslərin hüquqlarının qorunmasına, onların saxlanma şəraitinin müasirləşdirilməsinə xidmət edən bu tədbirlərin nəticəsidir ki, ölkəmizə münasibətdə ekstradisiya ilə bağlı müsbət qərarlar qəbul edilir və bununla cəzanın labüdlüyü prinsipi təmin edilir.

Təkcə 2023-cü il ərzində 14 nəfər şəxs Böyük Britaniyadan, Almaniyadan, Polşadan, Belarusdan, Moldovadan, habelə tranzit üçün Avropa ölkələrindən razılıq əldə edilərək Ukraynadan ölkəmizə ekstradisiya olunub.

Bu gün isə daha bir nəfərin Azərbaycana ekstradisiyası həyata keçirilib.

Belə ki, etibardan sui-istifadə və aldatma yolu ilə özgənin əmlakını ələ keçirərək külli miqdarda ziyan vurmaqla dələduzluq cinayətinin (AR Cinayət Məcəlləsinin 178.3.2-ci maddəsi) törədilməsində ittiham edilərək beynəlxalq axtarışa verilmiş Sənan Şəkərlinin yeri Kolumbiya Respublikasında müəyyən olunub və o, həbs edilib.

Nazirlik tərəfindən həmin şəxsin ölkəmizə ekstradisiyası ilə bağlı müvafiq sorğu göndərilib, Kolumbiyanın səlahiyyətli orqanları ilə danışıqlar aparılıb və beynəlxalq prosedurlara əsasən bütün tələb olunan zəmanətlər təqdim edilib, bu işdə diplomatik korpusumuz tərəfindən lazımi dəstək göstərilib. Kolumbiya tərəfi ekstradisiya sahəsində müqavilə-hüquq bazasının olmamasına baxmayaraq, Azərbaycanın dünyada etibarlı tərəfdaş kimi yüksək nüfuzunu və qarşılıqlıq prinsipinə dönmədən riayət edilməsini nəzərə alaraq təslimetmə ilə bağlı müsbət qərar verib və Latın Amerikasından ilk dəfə ekstradisiya həyata keçirilib.

S.Şəkərli Kolumbiyadan birbaşa uçuş reysi olmadığından Türkiyə ilə razılığa gəlinərək qardaş ölkə vasitəsilə tranzit olaraq yanvarın 21-də nazirliyin Beynəlxalq əməkdaşlıq idarəsinin və Penitensiar xidmətin məsul əməkdaşları tərəfindən Azərbaycana gətirilib və o, məhkəmənin həbs qərarına əsasən Bakı İstintaq Təcridxanasına yerləşdirilib.

Bununla da cinayətkarlıqla mübarizədə müstəsna rolu olan cəzanın labüdlüyü prinsipi təmin edilməklə cinayətkarların özlərini istənilən yerdə azad və təhlükəsizlikdə hiss etmələrinin qarşısı alınır.

Nazirlik tərəfindən bu sahədə lazımi tədbirlər davam etdirilir.

# Ədliyyə Nazirliyində notariat sahəsində aktual məsələlərlə bağlı onlayn brifinq keçirilib

**Ədliyyə fəaliyyəti ilə bağlı əhalinin hüquqi biliklərinin artırılması məqsədilə nazirliyin internet və sosial platforma səhifələrinin və media subyektlərinin imkanlarından geniş istifadə olunmaqla ardıcıl maarifləndirmə tədbirləri həyata keçirilir.**

Yanvarın 18-də nazirliyin rəsmi "facebook" səhifəsində canlı yayımda "Notariat sahəsində aktual məsələlər" mövzusunda onlayn brifinq keçirilib.



Tədbirdə nazirliyin Ədliyyə sahəsində xidmətlər baş idarəsinin aidiyyəti məsul işçiləri - Notariat idarəsinin rəhbəri Mirağa Abbasov və böyük məsləhətçisi Seymur İsmayılov, baş idarənin Nəzarət-analitik iş

üzrə qrup rəhbəri Leyla Bərxudarzadə və Azərbaycan Notariat Palatası idarə heyətinin sədri Hüseyn Məmmədov iştirak ediblər.

Brifinqdə ölkəmizin sosial-iqtisadi tərəqqisində və vətəndaşların mülki hüquq münasibətlərindən irəli gələn məsələlərin həllində mühüm rol oynayan notariat institutunun inkişafı ilə bağlı görülən işlər, qanunvericilikdəki yeniliklər, bu sahədə tətbiq olunan rəqəmsal innovasiyalar barədə vətəndaşlara məlumat verilib.

Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində notariusun öhdəliklərindən danışılaraq bununla bağlı ötən il qüvvəyə minmiş yeni Qanunun tələblərindən irəli gələrək müəyyən kateqoriya notariat əməliyyatlarının aparılması zamanı şəxsin gəlirinə dair məlumatın toplanması məsələsinə toxunulub. Bildirilib ki, notariat xidmətlərinin göstərilməsində məlumat toplanması funksiyası çoxillik təcrübəyə əsaslanır və yeni Qanunla müəyyən edilmiş məlumatların informasiya resurslarından əldə edilməsi mümkün olduğu halda vətəndaşdan sorğulanmır. Hər hansı sənədin tələb olunması ilə bağlı notariat hərəkəti iştirakçılarının narahatlığına əsas yoxdur. Çoxşaxəli ineqrasiya imkanlarına malik "Elektron notariat" informasiya sistemi xidmətlərin operativliyinin qorunub saxlanılmasına imkan verir.

Canlı yayımda vərəsəlik hüququnun təminatı ilə bağlı Konstitusiya Məhkəməsinin 26.12.2023-cü il tarixli qərarının icrasından irəli gələn məsələlər, o cümlədən vərəsəlik işlərinin rəsmiləşdirilməsində tətbiq ediləcək yeniliklərdən söz açılıb. Qeyd olunub ki, artıq vərəsəlik hüququ mirasın qəbul edilməsi müddətindən asılı olmadan təmin edilir, bu isə vərəsələrin öz konstitusion hüquqlarının təmin edilməsinə xidmət etməklə bu sahədə yarana bilən mübahisələrin qarşının alınmasına xidmət edir.

Eyni zamanda tikintisi başa çatmayan binaların tərkib hissələrinə münasibətdə hüquqların qeydiyyatında notariusun iştirakı barədə məlumat verib. Qeyd olunub ki, tikinti ilə məşğul olan sahibkarlar tərəfindən təqdim olunan bölünmə planının və bu plan əsasında bağlanmış müqavilələrin notariat qaydasında rəsmiləşdirilməsi nəticəsində yeni mülkiyyətçinin xeyrinə təminat qeydinin aparılması tikintisi başa çatmamış əmlak obyeklərinin mülki dövriyyəsi üçün əlverişli şərait yaradır. Bununla bağlı sahibkarların notariuslara müraciət olunması tövsiyə edilib.

Notariat xidmətlərinin elektronlaşdırılması ilə bağlı görülən tədbirlər, vətəndaş məmnunluğu doğuran "Mobil notariat"ın və "ƏNTEZ" xidmətin innovativ fəaliyyəti də qeyd olunub.

Diqqətə çatdırılıb ki, "Mobil notariat" tətbiqinin istifadəçiləri iki dəfə artaraq 900 minə çatıb və gündəlik 1000-1500 notariat əməliyyatları həyata keçirilir. Tətbiqin xidmət dairəsi daim genişləndirilərək ötən ildən "Mobil notariat" üzərindən artıq ikitərəfli müqavilələrin rəsmiləşdirilməsi imkanı yaradılıb və ilkin təcrübə kimi kirayə müqavilələri seçilib. Bu il digər ikitərəfli müqavilələrin də tətbiq üzərindən bağlanması imkanlarının yaradılması qarşıya qoyulan hədəflərdəndir.

Vətəndaşlar həmçinin nazirliyin yeni innovativ məhsulu olan - əmək, maliyyə və digər resurslara qənaət etməklə istənilən yerdə virtual platforma əsasında vətəndaşlara nazirliyə videozəng vasitəsilə müraciət edərək məsafədən müxtəlif ədliyyə xidmətlərindən eyni vaxtda yararlanmaq imkanı verən "ƏN TEZ" (Ədliyyə Nazirliyinə Təcili Elektron Zəng) Xidmət barədə məlumatlandırılıb. Qeyd edilib ki, əhaliyə xidmət sahəsində ölkədə ilk dəfə bu platformada tətbiq edilən "süni intellekt" insan davranışını vizuallaşdıraraq vətəndaşla ünsiyyət qurur və sənədlərin yerindəcə əldə edilməsini təmin edir.

120-dək izləyicinin qoşulduğu canlı yayımda vətəndaşlar və media nümayəndələri ilə interaktiv formada sual-cavab sessiyası keçirilərək onları maraqlandıran çoxsaylı suallar cavablandırılıb.

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 8 (II kitab), maddə 585; 2001, N 7, maddə 455; 2002, N 1, maddə 9, N 5, maddə 233, N 8, maddə 463; 2003, N 6, maddə 276; 2004, N 5, maddə 321, N 7, maddə 505, N 8, maddə 598, N 10, maddə 761, N 11, maddə 890; 2005, N 1, maddə 4, N 4, maddə 278, N 6, maddə 462, N 8, maddə 686, N 10, maddə 874, N 12, maddə 1079; 2006, N 1, maddə 3, N 2, maddə 64, N 5, maddə 390, N 10, maddə 847, N 11, maddə 929, N 12, maddə 1032; 2007, N 2, maddələr 65, 68, N 6, maddə 560, N 7, maddə 712, N 8, maddə 756, N 11, maddə 1049, N 12, maddə 1221; 2008, N 6, maddə 462, N 7, maddələr 606, 607, N 12, maddələr 1045, 1049; 2009, N 5, maddə 315, N 7, maddə 517, N 12, maddə 966; 2010, N 3, maddələr 171, 173, 178, N 7, maddə 593, N 12, maddə 1058; 2011, N 6, maddə 480, N 7, maddələr 589, 599; 2012, N 7, maddə 674, N 11, maddə 1062, N 12, maddə 1215; 2013, N 2, maddə 77, N 6, maddələr 616, 626, N 7, maddə 786, N 11, maddə 1265, N 12, maddə 1493; 2014, N 2, maddələr 90, 102, N 4, maddələr 328, 344, N 6, maddə 600, N 11, maddələr 1354, 1362; 2015, N 4, maddə 342, N 5, maddə 511, N 11, maddələr 1270, 1288; 2016, N 2 (II kitab), maddə 218, N 10, maddə 1607, N 12, maddələr 2020, 2031, 2034, 2039; 2017, N 5, maddə 751, N 12 (I kitab), maddələr 2232, 2267; 2018, N 5, maddələr 877, 882, N 7 (I kitab), maddə 1421, N 11, maddə 2235, N 12 (I kitab), maddə 2515; 2019, N 7, maddələr 1198, 1200, N 12, maddə 1898; 2020, N 6, maddə 675, N 7, maddələr 832, 852, 856; 2021, N 6 (I kitab), maddə 541, N 7, maddə 711; 2022, N 5, maddələr 428, 436, N 8, maddə 828, N 12, maddə 1374; 2023, N 1, maddələr 23, 40, N 2, maddə 207, N 4, maddə 445) aşağıdakı dəyişikliklər edilsin:

1.Aşağıdakı məzmunda 7.0.8-1-ci maddə əlavə edilsin:

"7.0.8-1. cinayət təqibi üzrə qiyabi icraat - məhkəmə tərəfindən qəbul edilmiş cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə qərar əsasında təqsirləndirilən şəxsin iştirakı olmadan onun barəsində cinayət təqibi üzrə məhkəməyədək, həmçinin birinci, apellyasiya və kassasiya instansiyası məhkəmələrində aparılan icraatdır;".

2. 53-cü maddə üzrə:

2.1. 53.6-cı maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Cinayət təqibi üzrə icraat dayandırıldıqdan sonra ibtidai araşdırmanın hərtərəfli, tam və obyektiv aparılması üçün prosessual hərəkətlərin həyata keçirilməsi zərurəti yarandıqda, cinayət təqibi üzrə icraat təzələnir və həmin prosessual hərəkətlər başa çatdırıldıqdan sonra yenidən dayandırılır.";

2.2. 53.7-ci maddəyə "əleyhinə" sözündən sonra ", terrorçuluq, terrorçuluğu maliyyələşdirmə" sözləri əlavə edilsin.

3. Aşağıdakı məzmunda IV-I fəsil əlavə edilsin:

**"IV-I fəsil**
**Prosessual sənədlərin rəsmi qaydada verilməsi**

**Maddə 54-1. Prosessual sənədlərin çatdırılması**

54-1.1. Bu Məcəllənin 54-1.5-ci və 54-1.6-cı maddələrində müəyyən edilmiş hallar istisna olmaqla, prosessual sənədlər "Poçt haqqında" Azərbaycan

Respublikasının Qanununda nəzərdə tutulmuş sifarişli poçt göndərişi (məktubu) ilə çatdırılır. Zəruri hallarda prosessual sənədlərin çatdırılması təhqiqatçı və ya müstəntiq tərəfindən həyata keçirilə bilər, habelə təhqiqatçı, müstəntiq, prokuror və ya hakim tərəfindən təhqiqat orqanına, eləcə də cinayət prosesini həyata keçirən müvafiq orqan tərəfindən öz əməkdaşlarına həvalə edilə bilər.

54-1.2. Prosessual sənəd onu göndərən orqana qaytarılmalı olan, forması müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş qəbzə və ya sənədin kötüyünə imza etdirilməklə, ünvan sahibinə şəxsən verilir. Hüquqi şəxsə ünvanlanmış prosessual sənəd müvafiq vəzifəli şəxsə qəbzə və ya sənədin kötüyünə imza etdirilməklə verilir. Prosessual sənədin rəsmi qaydada verilməsi cinayət prosesini həyata keçirən orqanda da həyata keçirilə bilər.

54-1.3. Prosessual sənədin çatdırılması vəzifəsi üzərinə düşən şəxslər bunu həmin prosessual sənədi aldıqları vaxtdan bir gündən gec olmayaraq yerinə yetirməli və bu barədə cinayət prosesini həyata keçirən orqana xəbər verməlidirlər.

54-1.4. Prosessual sənədin çatdırılması vəzifəsi üzərinə düşən şəxs ünvan sahibini onun yaşadığı, yaxud işlədiyi yer üzrə tapmadıqda, həmin sənəd ünvan sahibi ilə birlikdə yaşayan yetkinlik yaşına çatmış ailə üzvlərindən birinə (onların razılığı ilə), onlar olmadıqda müvafiq icra hakimiyyəti orqanına, ünvan sahibinin yaşadığı yer üzrə yerli özünüidarəetmə orqanına, yaxud onun işlədiyi yer üzrə müdiriyyətə verilir. Ünvan sahibinin əvəzinə prosessual sənədi qəbul etmiş şəxs qəbzdə və ya sənədin kötüyündə öz soyadını, adını, atasının adını, ünvan sahibinə münasibətini və ya tutduğu vəzifəni göstərməli və həmin sənədi mümkün olan ən qısa müddətdə ünvan sahibinə verməlidir.

54-1.5. "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə prosessual sənədlərin çatdırılması bu Məcəllənin 51-1-ci maddəsində müəyyən edilmiş qaydada həyata keçirilir.

54-1.6. Azərbaycan Respublikasının hüdudlarından kənarda olduğu üçün şəxsə prosessual sənədlərin bu Məcəllənin 54-1.1 - 54-1.5-ci maddələrində nəzərdə tutulmuş qaydada çatdırılması mümkün olmadıqda və şəxsin olduğu ölkə barədə etibarlı məlumatlar olduqda, prosessual sənədlər həmin şəxsə çatdırılması üçün müvafiq icra hakimiyyəti orqanı vasitəsilə Azərbaycan Respublikasının həmin ölkədəki diplomatik nümayəndəliyinə və ya konsulluğuna, yaxud cinayət işlərinə dair hüquqi yardım göstərilməsi qaydasında həmin ölkənin müvafiq səlahiyyətli orqanına göndərilir.

54-1.7. Tutulmuş və ya həbs edilmiş şəxslərin ünvanına daxil olan prosessual sənədlərin surətləri bu Məcəllənin 161.1.7-ci maddəsində nəzərdə tutulmuş qaydada həbs yerlərinin müdiriyyəti tərəfindən onlara çatdırılmalıdır.

54-1.8. Bu Məcəllənin 54-1.2-ci, 54-1.4-cü, 54-1.5-ci və 54-1.7-ci maddələrində, habelə prosessual sənədin şəxsə çatdırılması barədə yazılı məlumat cinayət prosesini həyata keçirən orqana daxil olduğu təqdirdə bu Məcəllənin 54-1.6-cı maddəsində nəzərdə tutulmuş hallarda prosessual sənəd rəsmi qaydada verilmiş hesab edilir.

**Maddə 54-2. Çağırış vərəqəsi**

54-2.1. Çağırış vərəqəsində aşağıdakı məlumatlar göstərilməlidir:

54-2.1.1. cinayət prosesini həyata keçirən orqanın adı, ünvanı, əlaqə məlumatları (indeks, telefon, faks və s.), təhqiqatçı, müstəntiq, prokuror və ya hakimin soyadı, adı, vəzifəsi və imzası;

54-2.1.2. çağırış vərəqəsinin verilməli olduğu şəxsin prosessual statusu, soyadı, adı, atasının adı, ünvanı, hüquqi şəxsin adı və yerləşdiyi ünvan;

54-2.1.3. çağırışa gəlmənin vaxtı (tarix və saat) və yeri;

54-2.1.4. şübhəli və ya təqsirləndirilən şəxsə münasibətdə şübhənin və ya ittihamın mahiyyəti;

54-2.1.5. bu Məcəllənin müvafiq maddələrinə istinad edilməklə çağırılan şəxsin prosessual hüquq və vəzifələrinin izahı;

54-2.1.6. çağırış vərəqəsi üzrə gəlməmənin nəticələri barədə məlumat, o cümlədən çağırılan şəxsin bu Məcəllənin 178.2-ci maddəsində nəzərdə tutulmuş əsaslar olduqda cinayət prosesini həyata keçirən orqana məcburi gətiriləcəyi barədə xəbərdarlıq;

54-2.1.7. təqsirləndirilən şəxsə onun barəsində bu Məcəllə ilə müəyyən edilmiş hallarda qiyabi icraatın açıla biləcəyi və qiyabi hökmün və ya məhkəmənin digər yekun qərarının çıxarıla biləcəyi barədə xəbərdarlıq, habelə həmin icraatda özünün seçimi əsasında müdafiəçi vasitəsilə təmsil olunmaq hüququndan istifadə etmək istədiyi halda, müdafiəçisi barədə məlumatların cinayət prosesini həyata keçirən orqana göndərməli olduğu barədə məlumat.

54-2.2. Çağırış vərəqəsinin forması müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

54-2.3. Çağırış vərəqəsində vaxt müəyyən edilərkən çağırılan şəxsin cinayət prosesini həyata keçirən orqana vaxtında gələ bilmə imkanı nəzərə alınmalıdır.

54-2.4. Çağırılan şəxsin xahişi ilə çağırışın tarixi və vaxtı dəyişdirilə bilər.

54-2.5. Çağırılan şəxs çağırışa gəlmədikdə bu Məcəllənin 178-ci maddəsində nəzərdə tutulmuş qaydada məcburi gətirilə bilər. Çağırılan şəxs üzrlü səbəbdən çağırışa gələ bilmədikdə bu barədə dərhal cinayət prosesini həyata keçirən orqana məlumat verməli, çağırışa gəlməməsinə səbəb olan üzrlü halları təsdiq edən dəlilləri təqdim etməlidir. Bu halda cinayət prsosesini həyata keçirən orqan çağırılan şəxsin iştirak edə biləcəyi tarix və vaxtı nəzərə almaqla yeni çağırış tarixi və vaxtı müəyyən edir.

54-2.6. Şəxs telefon, videokonfrans əlaqə sistemi və ya digər rabitə və telekommunikasiya vasitələrindən istifadə edilməklə çağırıla bilər. Bu halda çağırılan şəxsə çağırış vərəqəsinin bu Məcəllənin 54-2.1-ci maddəsində nəzərdə tutulmuş məzmunu, o cümlədən çağırılan şəxsin hüquq və vəzifələri izah edilir və bu barədə protokol tərtib olunur. Şübhəli və ya təqsirləndirilən şəxs telefon, videokonfrans əlaqə sistemi və ya digər rabitə və telekommunikasiya vasitələrindən istifadə edilməklə çağırıldıqda həmin şəxs qabaqcadan xəbərdar olunmaqla onun səsinin qeyd edilməsi təmin olunmalı, bu protokollaşdırılmalı və müvafiq elektron daşıyıcı protokola əlavə edilməlidir.

54-2.7. Həbs yerlərində saxlanılan şübhəli və təqsirləndirilən şəxslər həbs yerinin müdiriyyəti vasitəsilə çağırılırlar.

54-2.8. Fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli şəxslər onların qanuni nümayəndələri vasitəsi ilə çağırılırlar.

**Maddə 54-3. Qəbzin məzmunu**

54-3.1. Bu Məcəllənin 54-1.2-ci maddəsində nəzərdə tutulmuş qəbzdə aşağıdakılar göstərilməlidir:

54-3.1.1. cinayət prosesini həyata keçirən orqanın adı, ünvanı, təhqiqatçı, müstəntiq, prokuror və ya hakimin soyadı, adı, atasının adı, vəzifəsi;

54-3.1.2. prosessual sənədlərin verilməli olduğu şəxsin prosessual statusu, soyadı, adı, atasının adı, ünvanı, hüquqi şəxsin adı və yerləşdiyi ünvan;

54-3.1.3. prosessual sənədin adı;

54-3.1.4. prosessual sənədin verilmə vaxtı (tarix və saat), yeri, qəbul edən şəxsin soyadı, adı, atasının adı və imzası;

54-3.1.5. prosessual sənədin verilməməsinin səbəbləri;

54-3.1.6. ünvan sahibi olmadığı təqdirdə prosessual sənədin verildiyi şəxsin onu mümkün olan ən qısa müddətdə ünvan sahibinə vermək vəzifəsinə dair qeyd və onun imzası;

54-3.1.7. prosessual sənədin çatdırılması tapşırılmış şəxsin, yaxud rabitə orqanının nümayəndəsinin imzası.

**Maddə 54-4. Prosessual sənədləri qəbul etməkdən imtina**

Ünvan sahibi və ya digər şəxs prosessual sənədi qəbul etməkdən imtina etdikdə, onu təqdim edən şəxs ünvan sahibinin yaşadığı yer üzrə yerli özünüidarəetmə orqanı, müvafiq icra hakimiyyəti orqanı və ya iş yerinin müdiriyyətinin iştirakı ilə prosessual sənədin verilməməsinin səbəblərinə dair müvafiq qeydlər etdikdən sonra onu cinayət prosesini həyata keçirən orqana qaytarır. Bu halda prosessual sənəd rəsmi qaydada verilmiş hesab olunur.".

4. 91.5.42-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 91.5.43-cü maddə əlavə edilsin:

"91.5.43. cinayət təqibi qiyabi icraat qaydasında aparıldıqda:

91.5.43.1. çağırış vərəqəsini, cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə qərarı, habelə cinayət təqibi üzrə qiyabi icraat nəticəsində qəbul

edilmiş qiyabi hökm və ya məhkəmənin digər yekun qərarını bu Məcəllənin 54-1 - 54-4-cü maddələrində nəzərdə tutulmuş qaydada almaq (istintaqdan və ya məhkəmədən gizlənməsi müəyyən edildiyi hallar istisna olmaqla);

91.5.43.2. cinayət təqibi üzrə qiyabi icraatda müdafiəçisi vasitəsilə təmsil olunmaq;

91.5.43.3. cinayət işinin materialları ilə tanış olmaq, istintaq və digər prosessual hərəkətlərin keçirilməsinə dair vəsatətlər vermək;

91.5.43.4. cinayət təqibi üzrə qiyabi icraat nəticəsində qəbul edilmiş qiyabi hökm və ya məhkəmənin digər yekun qərarı ilə bağlı bu Məcəllənin 467-17-ci maddəsində nəzərdə tutulmuş qaydada ərizə verərək, onun ləğv edilməsi və cinayət işinə yenidən baxılmasını tələb etmək.".

5. 92-ci maddə üzrə:

5.1. aşağıdakı məzmunda 92.3.15-1-ci maddə əlavə edilsin:

"92.3.15-1. məhkəməyədək icraat zamanı cinayət təqibi qiyabi icraat qaydasında aparıldıqda;";

5.2. 92.3.16-cı maddədə "Məcəllədə" sözü "Məcəllənin 51-2-ci və 311.2-ci maddələrində" sözləri ilə əvəz edilsin;

5.3. 92.4.8-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 92.4.9-cu maddə əlavə edilsin:

"92.4.9. cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə prokurorun təqdimatına məhkəmədə baxılarkən - bu Məcəllənin 92.3.15-1-ci maddəsində nəzərdə tutulmuş halda.".

6. 151-ci maddə üzrə:

6.1. adına, 151.4-cü maddəyə və 151.5-ci maddənin birinci cümləsinə "təqsirləndirilən" sözündən əvvəl "şübhəli və ya" sözləri əlavə edilsin;

6.2. 151.1-ci maddədə "Təqsirləndirilən" sözü "Şübhəli və ya təqsirləndirilən" sözləri ilə əvəz edilsin.

7. 214.3-cü maddənin ikinci cümləsində "226" rəqəmləri "227" rəqəmləri ilə əvəz edilsin.

8. 226-cı maddə ləğv edilsin.

9. 272.2-ci maddədə "226" rəqəmləri "54-1 - 54-4" rəqəmləri ilə əvəz edilsin.

10. 278-ci maddə üzrə:

10.1. adında, 278.1-ci və 278.3-cü maddələrdə "Təqsirləndirilən" sözü "Şübhəli və ya təqsirləndirilən" sözləri ilə əvəz edilsin;

10.2. 278.2-ci maddədə "Təqsirləndirilən" sözü "Şübhəli və ya təqsirləndirilən" sözləri ilə əvəz edilsin və həmin maddəyə "olmadıqda" sözündən sonra ", yaxud şübhəli" sözləri əlavə edilsin;

10.3. 278.4-cü maddəyə "təqsirləndirilən" sözündən əvvəl "şübhəli və ya" sözləri əlavə edilsin.

11. Aşağıdakı məzmunda 290.3.3-1-ci maddə əlavə edilsin:

"290.3.3-1. cinayət təqibi üzrə qiyabi icraata xitam vermək və ibtidai istintaqın aparılması üçün cinayət işini öz göstərişləri ilə müstəntiqə qaytarmaq;".

12. 299-cu maddə üzrə:

12.1. 299.9.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"299.9.2. cinayət təqibi ilə bağlı bütün halların hərtərəfli, tam və obyektiv tədqiq edilməsinə mane olmamaq şərtilə böyük ictimai təhlükə törətməyən cinayətin törədilməsində təqsirləndirilən şəxs ona qarşı irəli sürülmüş ittihama məhkəmədə onun iştirakı olmadan baxılması barədə vəsatət qaldırdıqda;";

12.2. aşağıdakı məzmunda 299.9.3-cü maddə əlavə edilsin:

"299.9.3. bu Məcəllənin 467-13.1-ci maddəsində nəzərdə tutulmuş halda.".

13. 301-ci maddə üzrə:

13.1. 301.2.10-cu maddədə "qanunla işə qiyabi baxılmasına yol verildiyi" sözləri "bu Məcəllənin 51-2-ci və 311.2-ci maddələrində nəzərdə tutulmuş" sözləri ilə əvəz edilsin;

13.2. 301.5-ci maddənin ikinci cümləsində "226-cı maddəsində" sözləri "54-1 - 54-4-cü maddələrində" sözləri ilə əvəz edilsin.

14. 311.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"311.2. Təqsirləndirilən şəxsin iştirakı olmadan məhkəmə baxışına yalnız bu Məcəllənin 299.9.2-ci və 299.9.3-cü maddələrində nəzərdə tutulmuş hallarda yol verilir.".

15. 317.1-ci maddənin birinci cümləsində "226.1 - 226.3-cü" sözləri "54-1 - 54-4-cü" sözləri ilə əvəz edilsin.

16. 442.2.2-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 442.2.3-cü maddə əlavə edilsin:

"442.2.3. cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə vəsatət və təqdimatlara.".

17. 446-cı maddə üzrə:

17.1. adına, 446.1-ci mad-

dənin birinci abzasına, 446.2.4-cü, 446.2.5-ci və 446.2.7-ci maddələrə "tətbiq edilməsi" sözlərindən sonra ", cinayət təqibi üzrə qiyabi icraatın açılması" sözləri əlavə edilsin;

17.2. aşağıdakı məzmunda 446.1.2-2-ci maddə əlavə edilsin:

"446.1.2-2. cinayət təqibi üzrə qiyabi icraatın açılması üçün müstəntiqin əsaslandırılmış vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı;";

17.3. 446.2.6-cı maddəyə və 446.4-cü maddənin birinci cümləsinə "edilməsinin" sözündən sonra ", cinayət təqibi üzrə qiyabi icraatın açılmasının" sözləri əlavə edilsin;

17.4. 446.3-cü maddəyə "tətbiq edilməsi" sözlərindən sonra ", cinayət təqibi üzrə qiyabi icraatın açılması," sözləri əlavə edilsin.

18. 447-ci maddə üzrə:

18.1. adına, 447.1-ci və 447.5 - 447.7-ci maddələrə "tətbiq edilməsi" sözlərindən sonra ", cinayət təqibi üzrə qiyabi icraatın açılması" sözləri əlavə edilsin;

18.2. 447.3-cü maddədə "və ya prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi" sözləri ", prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi və ya cinayət təqibi üzrə qiyabi icraatın açılması" sözləri ilə əvəz edilsin.

19. 448-ci maddə üzrə:

19.1. adına və 448.1-ci maddənin birinci abzasına "tətbiq edilməsi" sözlərindən sonra ", cinayət təqibi üzrə qiyabi icraatın açılması" sözləri əlavə edilsin;

19.2. 448.1.3-1-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 448.1.3-2-ci maddə əlavə edilsin:

"448.1.3-2. cinayət təqibi üzrə qiyabi icraatın açılması və ya bundan imtina edilməsi barədə.";

19.3. 448.4-cü maddəyə "tətbiq edilməsinə" sözlərindən sonra", cinayət təqibi üzrə qiyabi icraatın açılmasına" sözləri əlavə edilsin;

19.4. aşağıdakı məzmunda 448.6-2-ci maddə əlavə edilsin:

"448.6-2. Cinayət təqibi üzrə qiyabi icraatın açılması məsələsi ilə bağlı məhkəmə qərarının surətinin göndərilməsi bu Məcəllənin 467-13.11-ci maddəsində nəzərdə tutulmuş qaydada həyata keçirilir.";

19.5. 448.8-ci maddəyə "edilməsinə" sözündən sonra ", cinayət təqibi üzrə qiyabi icraatın açılmasına" sözləri, "edilməsinin" sözündən sonra ", cinayət təqibi üzrə qiyabi icraatın açılmasının" sözləri əlavə edilsin.

20. 454-cü maddəyə "tətbiq edilməsi" sözlərindən sonra ", cinayət təqibi üzrə qiyabi icraatın açılması" sözləri əlavə edilsin.

21. 466.6-cı maddənin ikinci cümləsində "226" rəqəmləri "227" rəqəmləri ilə əvəz edilsin.

22. Aşağıdakı məzmunda LIV-II fəsil əlavə edilsin:

**"LIV-II fəsil**

**Cinayət təqibi üzrə qiyabi icraat**

**Maddə 467-12. Cinayət təqibi üzrə qiyabi icraatın xüsusiyyətləri**

467-12.1. Cinayət təqibi üzrə qiyabi icraat bu fəsildə müəyyən edilmiş xüsusiyyətlər nəzərə alınmaqla, bu Məcəllədə nəzərdə tutulmuş ümumi qaydalara uyğun olaraq aparılır.

467-12.2. Cinayət təqibi üzrə qiyabi icraat aparıldıqda bu Məcəllənin 91-ci maddəsində nəzərdə tutulmuş hüquqlar cinayət prosesini həyata keçirən orqan tərəfindən təmin edilməlidir.

467-12.3. Məhkəməyədək qiyabi icraat yalnız ibtidai istintaq şəklində aparılır.

467-12.4. Barəsində cinayət təqibi üzrə qiyabi icraat aparılan təqsirləndirilən şəxsə dair cinayət işi ayrıca icraata ayrılır.

467-12.5. Yetkinlik yaşına çatmayan şəxslər barəsində cinayət təqibi üzrə qiyabi icraatın aparılmasına yol verilmir.

**Maddə 467-13. Cinayət təqibi üzrə qiyabi icraatın açılması**

467-13.1. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100-119, 137, 144-145, 178, 179, 182, 193-1, 204, 205, 206, 206-1, 208, 214-219-1, 228, 274-283-1, 308-314-3, 318, 318-1, 319 və 324-cü maddələri, eləcə də həmin maddələrlə yanaşı eyni bir cinayət işi çərçivəsində cinayətlərin məcmusu üzrə həmin Məcəllənin digər maddələri ilə ittiham olunan təqsirləndirilən şəxsin Azərbaycan Respublikasının ərazisindən kənarda istintaqdan və ya məhkəmədən gizləndiyi və ya çağırışa gəlməkdən qəsdən boyun qaçırdığı üçün cinayət prosesində şəxsən iştirakının təmin edilməsi mümkün olmadıqda onun barəsində cinayət təqibi qiyabi icraat qaydasında aparıla bilər.

467-13.2. Təqsirləndirilən şəxsin bu Məcəllənin 54-1 - 54-4-cü maddələrində nəzərdə tutulmuş qaydada cinayət prosesini həyata keçirən orqana çağırılması nəticə vermədikdə, cinayət prosesini həyata keçirən orqandan gizlənən və ya çağırışa gəlməkdən qəsdən boyun qaçıran şəxsə ittiham elan etmək üçün onun tutulması, axtarışı, eləcə də bu Məcəllə və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən edilmiş qaydada verilməsi (ekstradisiyası) üçün tədbirlər görülür.

467-13.3. Cinayət prosesini həyata keçirən orqan təqsirləndirilən şəxsin bu Məcəllənin 54-1 - 54-4-cü maddələrində nəzərdə tutulmuş qaydada çağırılmasını həyata keçirdikdə, eyni zamanda barəsində cinayət təqibinin qiyabi icraat qaydasında keçirilməsi imkanı barədə onu məlumatlandırır, habelə həmin icraatda özünün seçimi əsasında müdafiəçi vasitəsilə təmsil olunmaq hüququndan istifadə etmək istədiyi halda, müdafiəçisi barədə məlumatları cinayət prosesini həyata keçirən orqana göndərməli olduğunu bildirir.

467-13.4. Bu Məcəllənin 467-13.2-ci maddəsində nəzərdə tutulmuş tədbirlər nəticə vermədikdə, cinayət prosesini həyata keçirən orqan təqsirsizlik prezumpsiyasına riayət etməklə, bu Məcəllənin 54-2.1-ci maddəsində nəzərdə tutulmuş məlumatları (çağırış vərəqəsinin verilməli olduğu şəxsin ünvanı istisna olmaqla) ictimai televiziya və radio vasitəsilə yayımlayır və rəsmi internet səhifəsində dərc etdirir.

467-13.5. Təqsirləndirilən şəxs cinayət təqibi üzrə icraatın hər hansı mərhələsində şəxsən iştirak etdikdən sonra istintaq və ya məhkəmədən gizləndikdə, onun bu Məcəllənin 467-13.4-cü maddəsində nəzərdə tutulmuş qaydada məlumatlandırılması tələb edilmir və həmin şəxs cinayət təqibinin qiyabi icraat qaydasında aparılmasından məlumatlı hesab olunur.

467-13.6. Məhkəməyədək icraat zamanı cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə qərar müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun yuxarı prokurorla razılaşdırılmış təqdimatı əsasında məhkəmə nəzarətini həyata keçirən məhkəmə tərəfindən qəbul olunur. Vəsatətə bu Məcəllənin 442 - 454-cü maddələrində müəyyən edilmiş qaydada baxılır.

467-13.7. Təqsirləndirilən şəxsin özünün seçdiyi müdafiəçi barədə məlumat olmadıqda, cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə məsələyə baxılmasında müdafiəçinin iştirakı cinayət prosesini həyata keçirən orqan tərəfindən təmin edilir. Təqsirləndirilən şəxsə verilməli olan prosessual sənədlərin surətləri müdafiəçiyə təqdim edilir.

467-13.8. Məhkəmənin hazırlıq iclası və ya məhkəmə baxışı zamanı, habelə apellyasiya və kassasiya instansiyası məhkəmələrində cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə məsələ məhkəmənin öz təşəbbüsü ilə və ya ittiham tərəfinin vəsatəti əsasında işə baxan məhkəmənin qərarı ilə həll edilir.

467-13.9. Cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə qərar yalnız təqsirləndirilən şəxs barəsində axtarış elan olunduğu vaxtdan 3 ay keçdikdən sonra qəbul edilə bilər.

467-13.10. Cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə məsələyə baxılarkən məhkəmə tərəfindən aşağıdakı hallar nəzərə alınır:

467-13.10.1. təqsirləndirilən şəxsin bu Məcəllədə nəzərdə tutulmuş qaydada çağırılması, olduğu yerin müəyyən edilməsi və cinayət prosesini həyata keçirən orqanın sərəncamına verilməsi üçün görülən tədbirlər;

467-13.10.2. təqsirləndirilən şəxsin hüquqi yardım almaq və müdafiə hüququnun təmin edilməsi;

467-13.10.3. təqsirləndirilən şəxsin bu Məcəllədə və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş qaydada axtarışı və verilməsi (ekstradisiyası) üçün görülmüş tədbirlər.

467-13.11. Cinayət təqibi üzrə qiyabi icraatın açılması məsələsi ilə bağlı məhkəmə qərarının surəti, həmin qərar çıxarıldıqdan sonra 3 gündən gec olmayaraq vəsatəti vermiş şəxsə, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora, təqsirləndirilən şəxsin müdafiəçisinə və təqsirləndirilən şəxsə (istintaqdan və ya məhkəmədən gizlənməsi müəyyən edildiyi hallar istisna

olmaqla) məhkəmə tərəfindən göndərilir.

**Maddə 467-14. Məhkəməyədək icraat zamanı cinayət təqibi üzrə qiyabi icraata xitam verilməsi**

467-14.1. Müstəntiq tərəfindən ittiham aktı ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərilənədək təqsirləndirilən şəxs könüllü gəldikdə və ya cinayət prosesini həyata keçirən orqanın sərəncamına verildikdə müstəntiq dərhal cinayət təqibi üzrə qiyabi icraata xitam verilməsi haqqında qərar qəbul edir və bu barədə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora məlumat verir. Cinayət işinə ittiham aktı ilə birlikdə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror tərəfindən baxılarkən təqsirləndirilən şəxs könüllü gəldikdə və ya cinayət prosesini həyata keçirən orqanın sərəncamına verildikdə prokuror dərhal bu Məcəllənin 290.3.3-1-ci maddəsində nəzərdə tutulmuş qərarı qəbul edir.

467-14.2. Bu Məcəllənin 467-14.1-ci maddəsində nəzərdə tutulmuş qərar çıxarıldığı vaxtdan cinayət təqibi üzrə icraat bu Məcəllə ilə müəyyən edilmiş ümumi qaydada davam etdirilir.

467-14.3. Təqsirləndirilən şəxs könüllü gəldiyi və ya cinayət prosesini həyata keçirən orqanın sərəncamına verildiyi gün müstəntiq təqsirləndirilən şəxsə bu Məcəllənin 91-ci maddəsində nəzərdə tutulmuş hüquq və vəzifələrini, o cümlədən bu Məcəllənin 467-14.4-cü maddəsinə uyğun olaraq vəsatət vermək hüququnu izah edir, bu barədə protokol tərtib edir və onu bu Məcəllənin 284 - 286-cı maddələrində nəzərdə tutulmuş qaydada cinayət işinin materialları ilə tanış edir.

467-14.4. Cinayət işinin materialları ilə tanışlıq başa çatdığı vaxtdan 48 saat ərzində təqsirləndirilən şəxs və onun müdafiəçisi təqsirləndirilən şəxsə aid istintaq və digər prosessual hərəkətlərin keçirilməsi barədə vəsatət verə bilər. Vəsatətə bu Məcəllənin 287.2-ci maddəsində nəzərdə tutulmuş qaydada və müddətdə baxılır.

467-14.5. Bu Məcəllənin 467-14.4-cü maddəsində nəzərdə tutulmuş vəsatət əsasında və ya müstəntiqin öz təşəbbüsü ilə cinayət təqibi üzrə qiyabi icraat zamanı aparılmış təqsirləndirilən şəxsə aid istintaq və digər prosessual hərəkətlər təkrar keçirilə, habelə əlavə istintaq və digər prosessual hərəkətlər aparıla bilər.

**Maddə 467-15. Məhkəmə icraatı zamanı cinayət təqibi üzrə qiyabi icraata xitam verilməsi**

467-15.1. Məhkəmə hökm və ya digər yekun qərar çıxarmaq üçün müşavirə otağına gedənədək təqsirləndirilən şəxs könüllü gəldikdə və ya məhkəmənin sərəncamına verildikdə məhkəmə dərhal cinayət təqibi üzrə qiyabi icraata xitam verilməsi haqqında qərar qəbul edir. Həmin qərar qəbul edildikdən sonra məhkəmə icraatı bu Məcəllə ilə müəyyən edilmiş ümumi qaydada aparılır.

467-15.2. Cinayət təqibi üzrə qiyabi icraata xitam verilməsi haqqında qərar çıxarıldıqdan sonra məhkəmə təqsirləndirilən şəxsə bu Məcəllənin 91-ci maddəsində nəzərdə tutulmuş hüquq və vəzifələrini, o cümlədən bu Məcəllənin 467-15.3-cü maddəsinə uyğun olaraq vəsatət vermək hüququnu izah edir, bunu məhkəmə iclasının protokoluna daxil edir və onun bu Məcəllənin 284-286-cı maddələrində nəzərdə tutulmuş qaydada cinayət işinin materialları ilə tanış olmasını təmin edir.

467-15.3. Cinayət işinin materialları ilə tanışlıq başa çatdığı vaxtdan 48 saat ərzində təqsirləndirilən şəxsin, onun müdafiəçisinin və dövlət ittihamçısının məhkəməyə aşağıdakılar barədə vəsatət vermək hüququ vardır:

467-15.3.1. təqsirləndirilən şəxsə aid istintaq və digər prosessual hərəkətlərin keçirilməsi;

467-15.3.2. cinayət işinin baxılmasına xitam verilməsi və onun hazırlıq iclasının keçirilməsi mərhələsinə qaytarılması.

467-15.4. Bu Məcəllənin 467-15.3-cü maddəsində nəzərdə tutulmuş vəsatət əsasında və ya məhkəmənin öz təşəbbüsü ilə cinayət təqibi üzrə qiyabi icraat zamanı aparılmış təqsirləndirilən şəxsə aid istintaq və digər prosessual hərəkətlər təkrar keçirilə, əlavə istintaq və digər prosessual hərəkətlər aparıla, habelə cinayət işinin

baxılmasına xitam verilməsi və onun hazırlıq iclasının keçirilməsi mərhələsinə qaytarılması haqqında qərar qəbul edilə bilər.

**Maddə 467-16. Qiyabi hökm və ya digər yekun qərarın çıxarılması**

467-16.1. Qiyabi hökm və ya digər yekun qərar bu Məcəllə ilə nəzərdə tutulmuş ümumi qaydada çıxarılır və icra edilir.

467-16.2. Barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxs Azərbaycan Respublikasının hüdudlarından kənarda olduqda qiyabi hökmün və ya digər yekun qərarın icra olunması üçün bu Məcəllədə və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş tədbirlər görülür.

**Maddə 467-17. Qanuni qüvvəyə minmiş qiyabi hökm və ya digər yekun qərarın ləğv edilməsi və yeni məhkəmə baxışının keçirilməsi**

467-17.1. Barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxs qiyabi hökm və ya digər yekun qərar qanuni qüvvəyə mindikdən sonra könüllü gəldikdə və ya cəzanı icra edən orqanın sərəncamına verildikdə cəzanı icra edən orqan dərhal qiyabi hökm və ya digər yekun qərarı çıxarmış məhkəməyə qiyabi hökm və ya digər yekun qərarın ləğv edilməsi və yeni məhkəmə baxışının keçirilməsi barədə məsələlərə baxılması üçün təqdimat verir.

467-17.2. Təqdimatın daxil olduğu vaxtdan 10 gün müddətində məhkəmə hökm və ya məhkəmənin digər yekun qərarlarının icrası qaydasında iclas təyin edir. Məhkəmənin iclasında barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxs, müdafiəçi və prokurorun iştirakı məcburidir.

467-17.3. Məhkəmə barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxsə qiyabi hökm və ya digər yekun qərarın ləğv edilməsi və yeni məhkəmə baxışının keçirilməsi barədə ərizə vermək hüququnu izah edir, bunu məhkəmə iclasının protokoluna daxil edir, barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxsə və onun müdafiəçisinə 10 gün müddətində cinayət işinin materialları ilə tanış olmaq üçün şərait yaradır. Cinayət işinin həcminin böyüklüyü ilə əlaqədar barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxsin və ya onun müdafiəçisinin vəsatəti əsasında həmin müddət 30 günədək uzadılır.

467-17.4. Cinayət işinin materialları ilə tanışlıq başa çatdığı vaxtdan 48 saat ərzində barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxs və ya onun müdafiəçisi qiyabi hökm və ya digər yekun qərarın ləğv edilməsi və yeni məhkəmə baxışının keçirilməsi barədə ərizə verməzsə, hakim qiyabi hökmün və ya digər yekun qərarın icrası barədə göstəriş verir və qiyabi hökm və ya digər yekun qərar ümumi qaydada icra olunur.

467-17.5. Barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxs və ya onun müdafiəçisi qiyabi hökm və ya digər yekun qərarın ləğv edilməsi və yeni məhkəmə baxışının keçirilməsi barədə ərizə verdikdə, həmin qiyabi hökm və ya digər yekun qərarın ləğv edilməsi barədə qərar qəbul edilir və yeni məhkəmə baxışının keçirilməsi məqsədilə bu Məcəllənin 298 - 307-ci maddələrində nəzərdə tutulmuş tədbirlər görülür.".

23. Aşağıdakı məzmunda 519.4-cü maddə əlavə edilsin:

"519.4. Qiyabi hökm və ya digər yekun qərar qanuni qüvvəyə mindikdən sonra barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxs könüllü gəldikdə və ya cəzanı icra edən orqanın sərəncamına verildikdə qiyabi hökm və ya digər yekun qərar çıxarmış məhkəmə cəzanı icra edən orqanın təqdimatı əsasında qiyabi hökm və ya digər yekun qərarın ləğv edilməsi və yeni məhkəmə baxışının keçirilməsi məsələsinə baxır.".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 22 dekabr 2023-cü il*
*N 1061-VIQD*

## "Məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu və 18-ci bəndlərini rəhbər tutaraq qərara alır:

"Məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 1, maddə 7; 2004, N 2, maddə 57, N 3, maddə 133; 2006, N 11, maddə 928; 2007, N 1, maddə 4, N 3, maddə 211; 2018, N 2, maddə 147; 2019, N 12, maddə 1896) aşağıdakı dəyişikliklər edilsin:

1. 11-ci maddənin on beşinci hissəsində "rütbələr" sözü "və ya hərbi rütbə" sözləri ilə əvəz edilsin.

2. 23-cü maddənin ikinci hissəsində "(məhkəmə-psixiatriya)" sözləri", məhkəmə-psixiatriya" sözləri ilə əvəz edilsin.

3. 39-cu maddənin ikinci hissəsində "ixtisas, xüsusi rütbələrinə" sözləri "xüsusi və hərbi rütbələrinə, habelə ixtisas" sözləri ilə əvəz edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 22 dekabr 2023-cü il*

*N 1062-VIQD*

## Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Əmək Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, N 4, maddə 213; 2001, N 3, maddə 143, N 6, maddə 362, N 11, maddələr 672, 679, N 12, maddə 731; 2002, N 1, maddə 2, N 5, maddə 241, N 6, maddə 328; 2003, N 1, maddələr 9, 23; 2004, N 1, maddə 10, N 2, maddə 57, N 3, maddə 133, N 6, maddə 413, N 7, maddə 505, N 9, maddə 672, N 12, maddə 981; 2005, N 3, maddə 151, N 4, maddə 278, N 7, maddə 560, N 10, maddə 874, N 11, maddə 1001, N 12, maddə 1094; 2006, N 3, maddələr 220, 222, N 5, maddə 385, N 11, maddə 923, N 12, maddələr 1004, 1025, 1030; 2007, N 5, maddələr 401, 437, N 6, maddə 560, N 8, maddə 756, N 11, maddələr 1049, 1053; 2008, N 3, maddə 156, N 7, maddələr 600, 602, N 10, maddə 887, N 11, maddə 960;

2009, N 2, maddə 48, N 5, maddə 294, N 6, maddə 399, N 12, maddələr 949, 969; 2010, N 2, maddələr 70, 75, N 4, maddə 275; 2011, N 1, maddə 11, N 2, maddələr 70, 71, N 6, maddə 464, N 7, maddə 598; 2012, N 11, maddə 1054; 2013, N 2, maddələr 89, 101, N 11, maddə 1268; 2014, N 2, maddə 92, N 10, maddə 1162, N 11, maddə 1339, N 12, maddə 1527; 2015, N 2, maddə 97, N 3, maddə 250, N 6, maddə 680; 2016, N 2 (I kitab), maddələr 190, 201, N 5, maddə 847, N 11, maddə 1767; 2017, N 6, maddələr 1031, 1048, N 12 (I kitab), maddələr 2187, 2189; 2018, N 1, maddə 13, N 6, maddə 1155, N 7 (I kitab), maddələr 1380, 1408, N 12 (I kitab), maddə 2532; 2019, N 1, maddə 35, N 4, maddə 570, N 5, maddələr 796, 804, N 7, maddə 1182, N 8, maddə 1380; 2020, N 1, maddə 1, N 5, maddə 522, N 7, maddə 832, N 11, maddələr 1322, 1332, 1335, N 12 (I kitab), maddə 1424; 2021, N 1, maddə 2, N 5, maddə 427, N 6 (I kitab), maddələr 539, 541, N 7, maddələr 698, 711, N 8, maddə 894, N 11, maddə 1203; 2022, N 6, maddə 582, N 11, maddələr 1239, 1240, N 12, maddə 1392; 2023, N 1, maddə 14, N 2, maddə 207, N 3, maddə 338, N 7, maddələr 896, 904; Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1017-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 97-ci maddənin adına "vaxtı" sözündən sonra "yerinə yetirilən" sözləri əlavə edilsin.

2. 98-ci maddə üzrə:

2.1. adında "işlərinə" sözü "yerinə yetirilən işlərə" sözləri ilə əvəz edilsin;

2.2. 1-ci hissədə "görülən işlərə hamilə və üç yaşınadək uşağı olan qadınların," sözləri "yerinə yetirilən işlərə" sözləri ilə əvəz edilsin;

2.3. 2-ci hissədə "görülən" sözü "yerinə yetirilən" sözləri ilə əvəz edilsin;

2.4. aşağıdakı məzmunda 3-cü hissə əlavə edilsin:

"3. Hamilə, 14 yaşınadək uşağı olan, həmçinin 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağı olan qadınlar (bu Məcəllənin 242-ci maddəsi nəzərə alınmaqla), üç yaşınadək uşağını təkbaşına böyüdən kişilər gecə vaxtı yerinə yetirilən işlərə yalnız onların yazılı razılığı ilə cəlb edilə bilərlər.".

3. 166-cı maddənin adına "vaxtı" sözündən sonra "yerinə yetirilən işə" sözləri əlavə edilsin.

4. 242-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 242. Qadınların gecə vaxtı yerinə yetirilən işlərə, iş vaxtından artıq işlərə və istirahət günlərində işə cəlb olunmasının, habelə ezamiyyətlərinin məhdudlaşdırılması**

1. Hamilə, 14 yaşınadək uşağı olan, həmçinin 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağı olan qadınların gecə vaxtı yerinə yetirilən işlərə, iş vaxtından artıq işlərə, istirahət, iş günü hesab edilməyən bayram və digər günlərdə işə cəlb edilməsinə və ezamiyyətə göndərilməsinə yalnız onların yazılı razılığı ilə (hamilə və 3 yaşınadək uşağı olan qadınlara münasibətdə onların, habelə uşağın həyat və ya sağlamlığına təhlükə yaranmaması barədə həkim rəyi olduqda) yol verilir.

2. Bu maddənin 1-ci hissəsi 14 yaşınadək uşağı, həmçinin 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağı övladlığa götürən qadınlara da şamil edilir.".

5. 254-cü maddə üzrə:

5.1. adında "işlərinə" sözü "vaxtı yerinə yetirilən işlərə" sözləri ilə əvəz edilsin;

5.2. 1-ci hissəyə "vaxtı" sözündən sonra "yerinə yetirilən" sözləri əlavə edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 22 dekabr 2023-cü il*
*N 1063-VIQD*

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı, 10-cu və 12-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Mediasiya haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, N 4, maddə 597; 2020, N 6, maddə 683, N 7, maddə 856, N 12 (I kitab), maddə 1442; 2021, N 7, maddə 712) 3.2-ci maddəsində, 28-ci maddəsinin adında, 28.1-ci maddəsində və 29-cu maddəsinin adında "Kommersiya mübahisələri, həmçinin ailə" sözləri "Ailə" sözü ilə əvəz edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 26 dekabr 2023-cü il*
*N 1079-VIQD*

"Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, N 12, maddə 740; 2002, N 12, maddə 706; 2003, N 1, maddə 23, N 8, maddə 428, N 12 (I kitab), maddələr 676, 698; 2005, N 1, maddə 1, N 6, maddə 462, N 8, maddə 684, N 10, maddələr 873, 905, N 12, maddə 1083; 2006, N 3, maddələr 223, 225, N 6, maddə 481, N 12, maddələr 1015, 1029; 2007, N 2, maddə 80, N 12, maddə 1203; 2008, N 3, maddə 158, N 6, maddə 462, N 7, maddə 602, N 12, maddə 1047; 2009, N 1, maddə 5, N 2, maddə 56, N 3, maddə 160, N 7, maddə 519, N 12, maddə 947; 2010, N 4, maddə 276, N 6, maddə 485, N 10, maddə 840, N 11, maddə 939; 2011, N 1, maddə 12, N 4, maddələr 245, 264, N 11, maddə 985, N 12, maddə 1100; 2012, N 1, maddə 4, N 6, maddələr 508, 518, N 7, maddə 646, N 10, maddə 947, N 12, maddələr 1216, 1227, 1229; 2013, N 3, maddə 213, N 5, maddə 474, N 11, maddələr 1269, 1279, 1299, 1301, 1308, N 12, maddə 1485; 2014, N 1, maddə 6, N 5, maddə 468, N 6, maddələr 603, 605, N 7, maddələr 774, 780, N 11, maddələr 1345, 1370; 2015, N 12, maddə 1432; 2016, N 1, maddələr 15, 36, N 4, maddə 630, N 5, maddə 849, N 6, maddə 1014, N 10, maddə 1605, N 11, maddələr 1753, 1776, 1780, 1790, N 12, maddələr 2006, 2051; 2017, N 3, maddələr 337, 341, N 5, maddə 742, N 6, maddə 1028, N 7, maddə 1308, N 8, maddə 1506, N 12 (I kitab), maddə 2265; 2018, N 3, maddə 405, N 4, maddələr 639, 647, N 6, maddələr 1186, 1194, N 7 (I kitab), maddələr 1415, 1444, N 8, maddə 1675, N 12 (I kitab), maddə 2489; 2019, N 1, maddə 45, N 4, maddələr 571, 596, N 5, maddə 797, N 7, maddələr 1176, 1181, 1190, 1192, N 8, maddələr 1360, 1363, 1371, N 11, maddələr 1681, 1694; 2020, N 5, maddələr 521, 524, N 6, maddə 665, N 7, maddələr 824, 828, 837, 851, 853, N 11, maddə 1327, N 12 (I kitab), maddə 1423; 2021, N 2, maddə 117, N 6 (I kitab), maddə 554, N 7, maddələr 711, 714, 718, N 8, maddə 898, N 10, maddə 1094, N 11, maddə 1207, N 12, maddə

1314; 2022, N 5, maddə 427, N 8, maddə 829, N 10, maddə 1125, N 12, maddələr 1366, 1379, 1389; 2023, N 1, maddələr 11, 19, N 2, maddə 210, N 3, maddə 337, N 4, maddə 463, N 6, maddə 742, N 8 (I kitab), maddə 1126; Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1012-VIQD və 1016-VIQD nömrəli qanunları) aşağıdakı məzmunda 9.1-2-ci maddə əlavə edilsin:

"9.1-2. Mülki işlər üzrə ilk dəfə "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə ümumi məhkəməyə iddia ərizəsi ilə müraciət edən fiziki şəxslər bu Qanunun 8-ci maddəsində nəzərdə tutulmuş dövlət rüsumunun məbləğinin 10 faizini ödəməkdən azad olunurlar.".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 26 dekabr 2023-cü il*
*N 1083-VIQD*

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Azərbaycan Respublikası Silahlı Qüvvələri Daxili xidmət nizamnaməsinin təsdiq edilməsi haqqında" və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci, 18-ci və 20-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

Maddə 1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 4 (II kitab), maddə 251, N 5, maddə 323, N 12, maddə 835; 2001, N 1, maddə 24, N 7, maddə 455; 2002, N 1, maddə 9, N 5, maddələr 236, 248, 258, N 6, maddə 326, N 8, maddə 465; 2003, N 6, maddələr 276, 279, N 8, maddələr 424, 425, N 12 (I kitab), maddə 676; 2004, N 1, maddə 10, N 4, maddə 200, N 5, maddə 321, N 8, maddə 598, N 10, maddə 762, N 11, maddə 900; 2005, N 1, maddə 3, N 6, maddə 462, N 7, maddə 575, N 10, maddə 904, N 11, maddə 994; 2006, N 2, maddələr 71, 72, 75, N 5, maddə 390, N 12, maddələr 1008, 1020, 1028; 2007, N 2, maddə 68, N 5, maddə 398, N 6, maddələr 560, 562, 579, N 8, maddə 757, N 10, maddələr 937, 941, N 11, maddələr 1049, 1080, 1090, N 12, maddə 1221; 2008, N 6, maddələr 454, 461, N 7, maddə 602, N 10, maddə 884, N 12, maddələr 1047, 1049; 2009, N 5, maddə 315, N 7, maddə 517, N 12, maddə 953; 2010, N 2, maddə 70, N 3, maddələr 171, 178, N 4, maddələr 275, 276, N 7, maddə 591; 2011, N 4, maddə 253, N 6, maddə 472, N 7, maddələr 587, 601, 621, N 11, maddə 980, N 12, maddə 1093; 2012, N 2, maddə 45, N 3, maddələr 193, 196, N 7, maddələr 666, 669, 673, N 11, maddə 1068, N 12, maddə 1223; 2013, N 1, maddə 14, N 2, maddə 102, N 4 maddə 364, N 5, maddələr 459, 479, 481, N 6, maddələr 594, 600, N 11, maddələr 1264, 1286, 1312, N 12, maddə 1492; 2014, N 2, maddələr 89, 95, N 4, maddə 327, N 6, maddələr 618, 622; 2015, N 4, maddələr 339, 359, 368, N 5, maddələr 504, 508, 510, N 6, maddələr 678, 690, 692, N 11, maddələr 1253, 1268, 1289, 1298, N 12, maddələr 1437, 1445; 2016, N 4, maddələr 634, 636, 638, 653, N 5, maddə 845, N 6, maddələr 993, 1001, N 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, N 2, maddə 161, N 3, maddə 330, N 5, maddələr 694, 697, 700, 702, 733, N 7, maddələr 1268, 1271, 1293, N 11, maddələr 1968, 1978, N 12 (I kitab), maddə 2231; 2018, N 3, maddə 403, N 5, maddə 861, N 6, maddə 1154, N 7 (I kitab), maddə 1441, N 10, maddə 1972, N 11, maddə 2213, N 12 (I kitab), maddə 2472; 2019, N 4, maddə 586, N 7, maddə 1201, N

8, maddə 1367; 2020, N 3, maddə 223, N 5, maddə 518, N 7, maddə 832, N 8, maddə 1010, N 11, maddələr 1332, 1333; 2021, N 6 (I kitab), maddə 541, N 8, maddə 894, N 12, maddə 1336; 2022, N 5, maddələr 434, 437, N 7, maddə 703, N 8, maddələr 821, 828, N 12, maddələr 1363, 1373; 2023, N 1, maddə 39, N 2, maddə 207, N 4, maddə 445, N 6, maddə 755; Azərbaycan Respublikasının 2023-cü il 21 noyabr tarixli 1023-VIQD nömrəli və 5 dekabr tarixli 1048-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 281-1-ci və 284-2-ci maddələr əlavə edilsin:

"Maddə 281-1. Azərbaycan Respublikasının ərazi bütövlüyünün parçalanmasına yönələn atributları və ya simvolları nümayiş etdirmə, yayma, hazırlama, əldə etmə, saxlama, daşıma və ya gəzdirmə

281-1.1. Azərbaycan Respublikasının ərazi bütövlüyünün parçalanmasına yönələn atributları və ya simvolları nümayiş etdirmə və ya yayma, yaxud nümayiş etdirmək və ya yaymaq məqsədilə hazırlama, əldə etmə, saxlama, daşıma və ya gəzdirmə -

beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya eyni müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

281-1.2. Bu Məcəllənin 281-1.1-ci maddəsində nəzərdə tutulmuş əməllər qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə -

beş ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

281-1.3. Bu Məcəllənin 281-1.1-ci maddəsində nəzərdə tutulmuş əməllər xarici təşkilatların və onların nümayəndələrinin tapşırığı ilə törədildikdə -

yeddi ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

"Maddə 284-2. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətinin, hərbi silah, sursat və ya hərbi texnikasının hərəkəti, yaxud dislokasiyası haqqında məlumatları yayma

284-2.1. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətinin, hərbi silah, sursat və ya hərbi texnikasının hərəkəti, yaxud dislokasiyası haqqında məlumatları yayma, müharibə vaxtı və ya döyüş şəraitində törədildikdə və bu Məcəllənin 274-cü, 276-cı və ya 284-cü maddələrində nəzərdə tutulmuş əməllərin əlamətləri olmadıqda -

üç ildən altı ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

284-2.2. Eyni əməllər ağır nəticələrə səbəb olduqda -

beş ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd: Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətinin, hərbi silah, sursat və ya hərbi texnikasının hərəkəti, yaxud dislokasiyası haqqında dövlət orqanları (qurumları) tərəfindən ictimaiyyətə açıqlanan məlumatların yayılması hallarına bu Məcəllənin 284-2-ci maddəsinin qüvvəsi şamil edilmir.";

1.2. 328-ci maddənin "Qeyd" hissəsinin 1-ci və 3-cü bəndlərində "fəslin" sözü "Məcəllənin" sözü ilə əvəz edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 2 (I kitab), maddə 202, N 3, maddələr 397, 403, 429, N 4, maddələr 631, 647, 654, N 5, maddələr 835, 846, N 6, maddələr 997, 1010, N 7, maddələr 1247, 1249, N 10, maddə 1608, N 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, N 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, N 1, maddə 21, N 2, maddələr 139, 147, 152, 162, N 3, maddələr 331, 344, N 5, maddələr 698, 701, 734, 749, 754, N 6, maddələr 1020, 1033, 1036, N 7, maddələr 1273, 1296, 1297, 1299, N 11, maddələr 1964, 1966, 1969, 1979, N 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, N 1, maddə 19, N 2, maddələr 160, 162, 163, N 3, maddələr 383, 401, 404, N 4, maddə 646, N 5, maddələr 857, 860, 862, 876, 883, N 6, maddələr 1153, 1188, N 7 (I kitab), maddələr 1435, 1437, 1438, N 10, maddə 1963, N 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, N 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, N 1, maddələr 4, 6, 15, 18, 23, 44, N 3, maddələr 374, 389, N 4, maddələr 579, 581, 587, 595, N 5, maddələr 791, 800, 803, 804, 813, N 6, maddələr 992, 998, 1007, N 7, maddə 1193, N 8, maddələr 1364, 1367, 1368, 1381,1383, N 11, maddələr

1682, 1686, 1696, N 12, maddələr 1883, 1900; 2020, N 3, maddə 222, N 5, maddələr 505, 515, 519, N 6, maddələr 670, 672, 681, N 7, maddələr 838, 841, 846, 854, N 8, maddələr 1008, 1011, N 9, maddə 1138, N 11, maddələr 1332, 1333, 1336, N 12 (I kitab), maddələr 1432, 1440; 2021, N 4, maddə 306, N 5, maddə 428, N 6 (I kitab), maddələr 535, 541, 546, 560, N 7, maddələr 701, 705, 711, N 8, maddə 894, N 11, maddə 1208, N 12, maddələr 1306, 1334; 2022, N 1, maddə 2, N 2, maddə 89, N 4, maddə 293, N 5, maddə 435, N 7, maddələr 694, 699, 703, N 8, maddələr 822, 825, 828, N 11, maddə 1236, N 12, maddələr 1364, 1399; 2023, N 1, maddələr 17, 20, 32, 39, N 2, maddələr 149, 201, 204, N 4, maddə 466, N 6, maddələr 743, 754, N 7, maddələr 905, 907, N 8 (I kitab), maddələr 1096, 1122, 1128; Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1008-VIQD nömrəli və 5 dekabr tarixli 1048-VIQD nömrəli qanunları) aşağıdakı məzmunda 614-1-ci maddə əlavə edilsin:

"Maddə 614-1. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətinin, hərbi silah, sursat və ya hərbi texnikasının hərəkəti, yaxud dislokasiyası haqqında məlumatların yayılması

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətinin, hərbi silah, sursat və ya hərbi texnikasının hərəkəti, yaxud dislokasiyası haqqında məlumatların mediada, o cümlədən internet informasiya ehtiyatında və ya informasiya-telekommunikasiya şəbəkəsində hərbi qulluqçular və ya toplanışa çağırılmış hərbi vəzifəlilər tərəfindən yayılmasına görə -

on gündən bir ayadək müddətə inzibati həbs tətbiq olunur.

Qeyd:

1. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətinin, hərbi silah, sursat və ya hərbi texnikasının hərəkəti, yaxud dislokasiyası haqqında dövlət orqanları (qurumları) tərəfindən ictimaiyyətə açıqlanan məlumatların yayılması hallarına bu Məcəllənin 614-1-ci maddəsinin qüvvəsi şamil edilmir.

2. Bu Məcəllənin 614-1-ci maddəsi həmin maddədə göstərilən əməl Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələrinə əsasən cinayət məsuliyyətinə səbəb olmadıqda tətbiq edilir.".

**Maddə 3.** Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 887 nömrəli Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995, N 22, maddə 364; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, N 5, maddə 312, N 6, maddə 415; 2007, N 8, maddə 754; 2008, N 8, maddə 709; 2010, N 4, maddə 274, N 12, maddə 1056; 2011, N 2, maddə 71; 2016, N 1, maddə 9; 2018, N 1, maddə 9, N 10, maddə 1967; 2021, N 6 (I kitab), maddə 544, N 7, maddə 699; 2022, N 5, maddə 433) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsi"nin 2-ci maddəsində "saxlamalıdır" sözü "saxlamalı, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətinin, hərbi silah, sursat və ya hərbi texnikasının hərəkəti, yaxud dislokasiyası haqqında məlumatları (dövlət orqanları (qurumları) tərəfindən ictimaiyyətə açıqlanan məlumatlar istisna olmaqla) yaymamalıdır" sözləri ilə əvəz edilsin.

**Maddə 4.** "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, N 6, maddə 364; 2005, N 6, maddə 466; 2006, N 12, maddə 1005; 2007, N 10, maddə 938; 2011, N 3, maddə 162; 2012, N 11, maddə 1051; 2017, N 3, maddə 345; 2019, N 12, maddə 1881; 2020, N 3, maddə 225, N 6, maddə 671; 2021, N 12, maddə 1345; 2022, N 7, maddə 693; 2023, N 4, maddə 448, N 5, maddə 626) aşağıdakı məzmunda 13-2.3.3-1-ci maddə əlavə edilsin:

"13-2.3.3-1. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətinin, hərbi silah, sursat və ya hərbi texnikasının hərəkəti, yaxud dislokasiyası haqqında məlumatlar (dövlət orqanları (qurumları) tərəfindən ictimaiyyətə açıqlanan məlumatlar istisna olmaqla);".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 30 dekabr 2023-cü il*
*N 1087-VIQD*

"Arbitraj haqqında" Azərbaycan Respublikasının 2023-cü il 26 dekabr tarixli 1077-VIQ nömrəli Qanununun* tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Arbitraj haqqında" Azərbaycan Respublikasının 2023-cü il 26 dekabr tarixli 1077-VIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Arbitraj haqqında" Azərbaycan Respublikası Qanununun 11.2-ci maddəsinin birinci cümləsində və 11.6-cı maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 11.6-cı maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Qanunun 11.2-ci maddəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. beynəlxalq norma və prinsiplər, habelə mütərəqqi xarici təcrübə nəzərə alınmaqla, "Beynəlxalq xüsusi hüquq haqqında" Azərbaycan Respublikasının yeni qanununun layihəsini altı ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Arbitraj haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.3. "Arbitraj haqqında" Azərbaycan Respublikası Qanununun 11.6-cı maddəsinə uyğun olaraq, daimi arbitraj təşkilatının akkreditasiyası və akkreditasiyasının ləğvi qaydasını iki ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, N 4, maddə 323 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 8.8-2-ci və 9.15-2-ci bəndlər əlavə edilsin:

"8.8-2. daimi arbitraj təşkilatı kimi fəaliyyət göstərmək üçün qeyri-kommersiya hüquqi şəxslərini akkreditasiyadan keçirir;";

"9.15-2. daimi arbitraj təşkilatı kimi fəaliyyət göstərmək üçün qeyri-kommersiya hüquqi şəxslərini akkreditasiyadan keçirmək və onların akkreditasiyasını ləğv etmək;".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 25 yanvar 2024-cü il*

*N 2455*

---

*"Arbitraj haqqında" Azərbaycan Respublikasının 2023-cü il 26 dekabr tarixli 1077-VIQ nömrəli Qanunu Hüquqi aktların vahid elektron bazasında (https://e-qanun.az/framework/56210) yerləşdirilmişdir.*

### "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 8 (III kitab), maddə 610 (Cild I) 2-ci hissəsinin on beşinci - on səkkizinci abzasları müvafiq olaraq on doqquzuncu - iyirmi ikinci abzaslar hesab olunsun və aşağıdakı məzmunda on beşinci - on səkkizinci abzaslar əlavə edilsin:

"həmin Məcəllənin 487-5.2-ci maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini aşağıdakı orqanlar həyata keçirirlər:

qeyri-kommersiya hüquqi şəxslərinə və xarici qeyri-kommersiya hüquqi şəxslərinin filial və nümayəndəliklərinə münasibətdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin müəyyən etdiyi bölgü üzrə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və onun rayon (şəhər) qeydiyyat şöbələri, Naxçıvan Muxtar Respublikasının ərazisində təsis edilən siyasi partiyalar və xarici ölkələrin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəlikləri istisna olmaqla, digər qeyri-kommersiya qurumlarına münasibətdə isə Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi;

kommersiya hüquqi şəxslərinə, xarici kommersiya hüquqi şəxslərinin filial və nümayəndəliklərinə, publik hüquqi şəxslərə münasibətdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, habelə Naxçıvan Muxtar Respublikasının Dövlət Vergi Xidməti;

dini qurumlara münasibətdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi;".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 19 yanvar 2024-cü il*
*N 2457*

# QANUNÇULUQ

## hüquq jurnalı

**BURAXILIŞA MƏSUL:**
**Rasim Həsənov**

Təsisçinin hüquqi ünvanı:
Azərbaycan Respublikası, AZ1073
Bakı şəhəri, İnşaatçılar pr., 1
Telefon: (+99412) 510-10-01, 537-05-54
Çağrı Mərkəzi: 881
www.justice.gov.az / contact@justice.gov.az

***

Redaksiyanın ünvanı:
Azərbaycan Respublikası, AZ1073
Bakı şəhəri, İnşaatçılar pr., 1
Telefon: (+99412) 537-06-40
Email: mojpress@justice.gov.az

"Qanunçuluq" jurnalı redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş, "Ədliyyə Nəşriyyat Evi" MMC-də çap olunmuşdur.
"Ədliyyə Nəşriyyat Evi" MMC-nin ünvanı:
Xaqani küç., 14, tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri: "Ədliyyə Nəşriyyat Evi" MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701
Azərbaycan Beynəlxalq Bankın Səbail
filialı, kod 805551, VÖEN 9900001881,
M/h 0137010002031, SWIFT/Bik IBAZAZ-2x
Sifariş: 78 Tiraj:1000 ədəd